RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 139 (8455) ŞƏNBƏ, 18 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# BAŞ SƏRKƏRDƏ

# Ermənistana göz dağı verdi

## İlham Əliyev işğalçı ölkənin son döyüşlərdən dərs götürmədiyi halda Azərbaycan Ordusunun sarsıdıcı zərbələrinin davam edəcəyini bəyan etdi

**Cəbhədə vəziyyət gərgin olaraq qalır. Beynəlxalq hüquq normalarını kobud surətdə pozan Ermənistan işğalçı və təcavüzkar mövqeyini davam etdirir, sivil dəyərlərə məhəl qoymadan pandemiya şəraitində də təxribatçı fəaliyyətindən əl çəkmir. İyul ayının 12-14-də Tovuz istiqamətindəki sərhəd xəttində baş verən qısamüddətli döyüşlər bunun daha bir təsdiqi oldu.**

### Növbəti erməni təxribatı, vandalizmin əyani təzahürü

Baş verən növbəti təxribatda yenə də ağır zərbə alan tərəf Ermənistan oldu. Düzdür, bu təxribat zamanı Azərbaycan Silahlı Qüvvələrinin bir neçə hərbçisi qəhrəmancasına savaşaraq şəhidlik zirvəsinə yüksəldi. Həmçinin düşmənin dinc, mülki əhaliyə qarşı artilleriya atəşi zamanı Tovuzun Ağdam kəndinin sakini həlak oldu. Bu da dinc əhaliyə qarşı faşizmin, erməni vandalizminin əyani təzahürü idi. Ermənistan bu çirkin əməlləri ilə bir daha Azərbaycan xalqına növbəti mesajını verdi ki, onların sülh, əmin-amanlıq şəraitində yaşamaq niyyətləri yoxdur.

Əlbəttə ki, bufədəki təxribat da cavabsız qalmamalı idi.

İyulun 13-də Təhlükəsizlik Şurasının iclasını keçirən Ali Baş Komandan İlham Əliyev işğalçı Ermənistana sərt xəbərdarlıq edərək bəyan etdi ki, Azərbaycan bütün imkanları ilə özünü qoruyacaq və düşmənə Aprel və Günnüt döyüşlərində olduğu kimi, yenidən yerini göstərəcək.

Bu xəbərdarlıqdan sonra Ali Baş Komandanın göstərişi ilə düşmənin hərbi obyektləri, texnika və canlı qüvvələri məhv edildi. Şəhidlərimizin qanı yerdə qalmadı.

İyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyev Ermənistanın sərhəd xəttindəki təxribatına bir daha aydınlıq gətirdi. Prezident qeyd etdi ki, təxribat nəticəsində hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz şəhid olublar.

Ardı 4-cü səh.

# “Bizim birliyimizi, xalqımızın, dövlətimizin gücünü heç bir qüvvə sarsıda bilməz”

**Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.**



Samux rayonundan **Cəlal Tağızadə** yazır: “Hörmətli cənab Prezident, bu günlərdə cəbhədə baş verənlər məni bir gənc olaraq çox təsirləndirdi. Sizin komandanlığınızla bu ruhla, bu inamla və ən əsası xalqın gücünü, dəstəyini bu cür hiss edən bir ordunun qarşısını heç bir ordu kəsə bilməz. Cənab Prezident, biz Yeni Azərbaycan Partiyası Samux rayon Gənclər Birliyinin üzvləri Sizin döyüş əmrinizi gözləyirik”.

Sumqayıt şəhərindən **Elvin Kazımlı:** “Hörmətli cənab Prezident, bu günlərdə sərhəd bölgəmizdə güclü ordumuzun düşmənə sarsıdıcı zərbələrlə onların döyüş mövqelərini darmadağın etməsinin şahidiyik. Biz bir vətəndaş olaraq, bir əsgər olaraq hər zaman Sizin yanınızdayıq. Qələbəni səbirsizliklə gözləyirik. Mən ehtiyatda olan əsgər kimi döyüşə hazıram. Biz Sizinlə bir yerdə güclüyük. Sizin döyüş əmrinizi gözləyirik”.

Zəngilan rayonundan **Ayna Zeynalova:** “Hörmətli cənab Prezident, biz gənclərə göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Vətənin bu çətin günündə biz gənclər Vətən qarşısında öz borcumuzu qaytarmağa hazırıq. Cənab Ali Baş Komandan, bütün məcburi köçkün gəncləri adından deyə bilərəm ki, hər birimiz əsgərik və bunu Sizin bir əmrinizlə mənfur düşmənə sübut etməyə, Sizin rəhbərliyinizlə öz ata-baba yurdumuzu erməni işğalçılarından təmizləməyə hazırıq”.

Samux rayonundan **Teymur Abdullayev:** “Hörmətli cənab Prezident, Vətənimlə, düşmən qarşısında dərhal birləşən, Ali Baş Komandanın əmri ilə döyüşə atılmağa hazır olan xalqımla bir azərbaycanlı kimi qürur duyuram. Qətiyyətinizə görə Sizə, birləşdiyinə görə xalqıma, əzəli Azərbaycan torpaqları uğrunda döyüşlərdə göstərdikləri rəşadət və mərdliyə görə igid əsgər və zabitlərimizə minnətdarlığımı bildirmək istəyirəm. Sizin döyüş əmrinizi gözləyir və iradənizə inanıram”.

# Türkiyə Prezidenti: “Qardaş Azərbaycanı qətiyyən tək qoymarıq”

**“Qardaş Azərbaycanı qətiyyən tək qoymarıq. Dağlıq Qarabağ işğal altındadır. Minsk qrupu 25-30 ilə yaxındır ki, bu işi masanın üstündə saxlayıb”.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərməsi nəticəsində yaranan gərgin hərbi vəziyyətlə bağlı jurnalistlərin suallarını cavablandırarkən deyib.

Prezident İlham Əliyevlə vəziyyəti müzakirə etdiyini, Azərbaycan hərbi nümayəndə heyətinin Ankaraya səfərə gəldiyini diqqətə çatdıran Türkiyə dövlətinin başçısı qeyd edib ki, Ermənistan Tovuz bölgəsi istiqamətində yaşayış məskənlərini və dinc əhalini atəşə tutur. Azərbaycan da torpaqlarını və əhalisini qətiyyətlə müdafiə edir. ”Qafqaz mücadiləsi zamanında olduğu kimi, bundan sonra da Azərbaycanın, azərbaycanlı qardaşlarımızın yanında olacağıq”, - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.



# COVID-19 iqtisadi inkişafı ləngitsə də, vəziyyət kritik deyil

**Prezident İlham ƏLİYEV:** “Əminəm ki, dünya iqtisadiyyatı pandemiyadan çıxmağa başlayan kimi, bizdə də bu sahədə vəziyyət bərpa olunacaq”

2020-ci il əvvəldən tərs gəldi. XXI əsrin üçüncü onilliyinin başlanğıcına ümidlər çox olsa da, o, nəinki bu ümidləri doğrultmadı, hətta yeni yüzilliyin özünəqədərki tarixində əldə olinan müsbət nə vardısa, hamısının üstündən xətt çəkdi. Yəqin ki, nəyi nəzərdə tutduğumuzu anlayırsınız. Bəli, söhbət COVID-19 adlı koronavirusun dünyanı çənginə alması səbəbindən elan olunmuş pandemiyanın törətdiyi fəsadlardan gedir.

Ardı 6-cı səh.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# Böyük Azərbaycan Partiyası ölkədə aparılan islahatları dəstəkləyir

Elşad MUSAYEV: “İndiki həssas dönəmdə müxalifətçiliyi bir qədər kənara qoyub hamımız ölkəmizi bu bəladan çıxarmaq üçün birgə fəaliyyət göstərməliyik”

2018-ci ilin prezident seçkilərində qələbədən sonra İlham Əliyev ölkədə yeni islahatların keçiriləcəyini bəyan etmişdi. Ötən iki ildə cəmiyyət həyatının bütün sahələrində baş verən pozitiv dəyişikliklər köklü islahatların, o cümlədən siyasi islahatların həyata keçirilməsindən xəbər verir. Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayevlə söhbətimiz də bu barədə oldu.

### Təmaslar davam etməlidir

Öncə siyasi islahatlara nəzər salan Elşad Musayevin sözlərinə görə, son vaxtlar əsas müzakirə mövzularından biri Azərbaycanda siyasi sistemdə yeni konfiqurasiyanın formalaşmasıdır. Bunun reallaşması üçün bir sıra şərtlərin həyata keçirilməsinin vacib olduğunu deyən partiya sədri bildirdi ki, ilkin şərt hakimiyyətdə olan siyasi qüvvənin bu istəkdə bulunması, islahatlar, dəyişimlər və yeniləşmə kimi pozitiv məqamları prioritet kimi qəbul etməsi və reallaşdırmaq üçün addımlar atmasıdır.

Ardı 6-cı səh.



# Azərbaycanda pandemiya ilə bağlı vəziyyət nəzarətdədir

**Ötən ilin dekabrında Çinin Uhan şəhərində aşkarlanan yeni növ koronavirus infeksiyası bir neçə ay ərzində planetin 213 ölkə və bölgəsinə yayılıb.**

2020-ci ilin geridə qoyduğumuz 6 ayı ərzində dünyanın gündəmini əsasən qlobal pandemiya ilə savaş zəbt edib. Ölkələrin əsas mübarizəsi COVID-19 virusunun qarşısını almağa yönəlib. Lakin dünyanı öz əsirinə çevirən koronavirus hələ də sürətlə yayılmağa, yoluxdurmağa və canlar almağa davam edir. Bu isə o deməkdir ki, planetimiz hələ də taclı bəlaya qarşı təhlükədədir.

COVID-19 yayılmağa başlayandan virusun spesifik xüsusiyyətləri barədə müxtəlif fikirlər səsləndirilir, araşdırmalar aparılır.

Ardı 6-cı səh.

# Gənclər fərarilik edir, Paşinyanın ümidi qocalaradır

Ermənistanda ordunun son durumu ilə bağlı həyəcan təbili çalınır

**Bu gün Ermənistan ordusunda əvvəllər də müşahidə olunan qanun pozuntuları daha geniş miqyas almağa başlayıb. Erməni ordusunun itkisi həm döyüş, həm də qeyri-döyüş şəraitində kütləvi şəkildə artır.**

Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində ermənilərin son günlər törətməyə çalışdığı təxribatlar Nikol Paşinyan iqtidarına olduqca baha başa gəlir. Erməni ordusunun təxribatlarının qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınır, cəbhədə düşmənin itkiləri durmadan artır.

Çoxsaylı itkilər və artan fərarilik fonunda erməni ordusunda əsgər çatışmazlığı özünü daha qabarıq büruzə verməyə başlayıb. Erməni mediasının yazdığına görə, Azərbaycan Ordusunun son günlərdə uğurlu əks-həmlə döyüşlərindən sonra ciddi itkilər verərək geri çəkilən Ermənistan silahlı qüvvələrinə səfərbərlik başlayıb.

Paşinyan hökumətinin son təcili iclasının qapalı hissəsində səfərbərlik aparılması zərurəti ifadə olunub. Baş nazir açıq etiraf edib ki, Azərbaycan-Ermənistan sərhədinin bir istiqamətində gedən mövqe döyüşlərinə görə ehtiyat qüvvələrin cəlb edilməsinə zərurət yaranıb.

Daha sonra baş nazir səfərbərlik zərurətini Müdafiə Nazirliyinin rəhbərliyi-nazir David Tonoyanla və baş qərargah rəisi Onik Qasparyanla müzakirə edib. Xüsusən də “Yerkrapa” könüllülərinin döyüş əməliyyatlarına cəlb edilməsi haqda danışılıb.

Ardı 5-ci səh.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq,"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1628-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694; Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 71-VIQD, 74-VIQD nömrəli və 5 may tarixli 86-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 2.0.18-2-ci, 32-2-ci və 32-3-cü maddələr əlavə edilsin:

"2.0.18-2. tibb müəssisələrinin akkreditasiyasının keçirilməsi;";

**"Maddə 32-2.** Tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun dərəcələri

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 32-2.1. ambulator xidmət göstərən tibb müəssisələri | 2000 manat |
| 32-2.2. stasionar xidmət göstərən tibb müəssisələri | 4000 manat |

**"Maddə 32-3.** Tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri

32-3.1. Bu Qanunun 32-2.1-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər regionlar üzrə isə 50 faizi ödənilir.

32-3.2. Bu Qanunun 32-2.2-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun 250-dən çox çarpayısı olan tibb müəssisəsi üzrə 100 faizi, 101-250 çarpayısı olan tibb müəssisəsi üzrə 90 faizi, 50-100 çarpayısı olan tibb müəssisəsi üzrə 70 faizi, 50-dən az çarpayısı olan tibb müəssisəsi üzrə isə 50 faizi ödənilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

# AŞPA-nın prezidenti Milli Məclis Sədrinin məktubuna cavab göndərib

Avropa Şurası Parlament Assambleyasının prezidenti Rik Daems Milli Məclisin Sədri Sahibə Qafarovanın Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətməsi ilə bağlı müraciət məktubuna cavab göndərib. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

AŞPA prezidenti bildirib ki, bu məsələ assambleyanın müvafiq komitələrinin diqqətinə çatdırılıb. O, komitələrin yaranmış vəziyyəti yaxından izlədiyinə inandığını bildirib.

Rik Daemsin Sahibə Qafarovaya ünvanladığı məktubda bildirilir ki, AŞPA tərəfləri gərginlik yaradan və münaqişəni dərinləşdirə biləcək hərəkətlərdən çəkinməyə çağırır.

AŞPA prezidentinin məktubunda daha sonra qeyd edilir: "Tərəfləri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə əməkdaşlığa davam etməyə, münaqişənin sülh yolu ilə həllini tapmağa, mülki şəxslərin təhlükəsizliyini və müdafiəsini təmin etməyə çağırıram".

# Azərbaycan Respublikası Milli Məclisi Aparatının məlumatı

İyulun 17-də Şimali Kipr Cümhuriyyət Məclisinin sədri Teberrüken Uluçay Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahibə Qafarovaya zəng edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Teberrüken Uluçay Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı həlak olan şəhidlərin xatirəsini ehtiramla yad etdiyini bildirərək, onların ailələrinə başsağlığı verib, yaralananlara şəfa dilədiyini ifadə edib. Hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərini bildirən Cümhuriyyət Məclisinin sədri Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi təxribatı qəti şəkildə pislədiklərini və Ermənistanın bu addımlarının yolverilməz olduğunu vurğulayıb. Sonda Teberrüken Uluçay Azərbaycana daimi rifah və qələbə arzuladığını bildirib.

Milli Məclisin sədri Sahibə Qafarova öz növbəsində göstərilən diqqət və dəstək üçün Teberrüken Uluçaya dərin təşəkkürünü ifadə edib. Sahibə Qafarova bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində güclü orduya malik Azərbaycan Silahlı Qüvvələri Ermənistanın təxribatına dərhal və adekvat cavab verib.

Milli Məclisin sədri əminliklə qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü ən qısa müddətdə bərpa edəcək və qələbə çalacaq. Sonda Sahibə Qafarova Cümhuriyyət Məclisinin sədrinə telefon zəngi üçün təşəkkür edib.

# Nazir Ceyhun Bayramov Xarici İşlər Nazirliyinin kollektivinə təqdim olunub



İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Xarici İşlər naziri təyin edilən Ceyhun Bayramov nazirliyin kollektivinə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, naziri kollektivə Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev təqdim edib.



# Prezidentin köməkçisi "Aljazeera International" kanalında Ermənistanın təcavüzkar siyasətini ifşa edib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Aljazeera International" kanalında "İnside Story" verilişində Ermənistanın baş naziri Nikol Paşinyanın sabiq diplomatik müşaviri Arsen Xaratyan ilə debata çıxıb.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev Ermənistanın gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal etdiyini, işğal olunmuş ərazilərdə qanlı etnik təmizləmə törətdiyini qeyd edərək beynəlxalq hüquqa əsasən Ermənistanın hüquqi məsuliyyət daşıdığını bildirib.

Prezidentin köməkçisi danışıqlar prosesində münaqişənin mərhələli şəkildə həll edilməli və bu istiqamətdə ilkin addım kimi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu bildirib, amma Ermənistan baş nazirinin ziddiyyətli bəyanatları ilə danışıqlar prosesini pozduğunu diqqətə çatdırıb. O, münaqişənin həllinin siyasi-hüquqi əsaslarının müəyyən olunduğunu və bunun beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsaslandığını bildirib.

H.Hacıyev Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək Azərbaycan ərazilərinin ilhaqını həyata keçirdiyini, işğal olunmuş torpaqlarımızda qanunsuz əməllər, o cümlədən qanunsuz məskunlaşma siyasəti apardığını vurğulayıb.

Ermənistan baş nazirinin sabiq diplomatik müşavirinin Ermənistanda demokratiya qurulması barədə iddialarına cavab olaraq Prezidentin köməkçisi bildirib ki, demokratiya Ermənistanın danışmalı olduğu sonuncu məsələdir. O, əlavə edib ki, Ermənistanda inqilabi diktatura qurulur, jurnalistlər və müxalifətçilər həbs olunur. Qeyd edib ki, demokratik dövlət digər dövlətin ərazisini işğal etmir və qanlı etnik təmizləmə törətmir.

Qarşı tərəfin qardaş Türkiyəyə qarşı iddialarına cavab olaraq H.Hacıyev Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları irəli sürüldüyünü, Ermənistanda dövlət səviyyəsində şovinizm əsasında "böyük Ermənistan" təbliğatının aparıldığını və gənc nəslin bu ruhda böyüdüldüyünu vurğulayıb. H.Hacıyev Ermənistanın sərhədlərinin bağlı olmasının və Ermənistanın özünü təcrid vəziyyətində yaşamasının günahının bu ölkənin yürütdüyü irticaçı siyasət olduğunu bildirib. O, rasizm, şovinizm prinsipləri əsasında Ermənistanın yeni milli təhlükəsizlik strategiyasının hazırlandığını qeyd edib.

Türkiyə-Ermənistan sərhədinin bağlı olmasına gəldikdə isə Prezidentin köməkçisi Ermənistanın öz ərazisindən hücum edərək Kəlbəcəri işğal etdikdən sonra Türkiyənin BMT Nizamnaməsini əsas tutaraq təcavüzkar ölkə olan Ermənistanla sərhədlərini bağladığını qeyd edib.

Veriliş əsnasında H.Hacıyev dövlət sərhədinin Tovuz istiqamətində baş verən hadisələr, Ermənistanın növbəti təxribatı və hərbi avantürası, mülki insanların Ermənistan tərəfindən qəsdən hədəfə alınması faktlarını diqqətə çatdırıb.

Xəbər ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür:

https://www.youtube.com/watch?v=lLnl2I8aSWQ

# Adil ƏLİYEV: "Ermənistan törətdiyi təxribatlarla beynəlxalq hüququn bütün normalarını pozur"

"Hazırda bütün dünya COVID-19 pandemiyasının yayılmasına qarşı mübarizə aparır. Bu mübarizəyə ən çox töhfə verən dövlətlərdən biri də Azərbaycandır. Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizin atdığı addımları müsbət dəyərləndirir və xəstəliyə qarşı mübarizədə aparılan səyləri nümunə olaraq digər ölkələrə göstərir. Lakin belə bir çətin vəziyyətdə Ermənistan dövləti iyulun 12-dən etibarən ölkəmizin sərhədlərində təxribatlar törətməyə başladı. Həmin gündən etibarən Ermənistan Tovuz rayonu istiqamətində həyata keçirməyə başladığı təxribatçı fəaliyyətini hazırda da davam etdirir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib ki, Ermənistan tərəfinin budəfəki hücumu tarixin analogiyasına baxsaq, 1992-ci ildə olan hücumla eyniyyət təşkil edir. Yenə ağır artilleriya silahlarından istifadə etməklə dinc əhalinin yaşadığı ərazilərə mütəmadi olaraq hücumlar təşkil edilir. Bu hücumlar nəticəsində bu günə qədər 11 hərbi qulluqçu şəhid olub, 1 mülki vətəndaş qətlə yetirilib. Qeyd olunan hücumlar pandemiyaya qarşı aparılan mübarizəni daha da çətinləşdirir.

Hazırda Ermənistan rəhbərliyinin diktəsi ilə Azərbaycan sərhədində həyata keçirilən təxribat zamanı həlak olan hərbçilərlə yanaşı, mülki əhali də ağır artilleriya silahlarının hədəfindədir. Belə ki, Tovuz rayonunun Ağdam kəndinin sakini, 1944-cü il təvəllüdlü Əzizov Əziz İzzət oğlu evinə düşən ağır artilleriya mərmisinin partlaması nəticəsində həlak olub. Bununla da mərhum vətəndaşın İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulmuş yaşamaq hüququ Ermənistan dövləti tərəfindən pozulub. Qeyd edək ki, bu, Ermənistan tərəfindən ilk belə hal deyil. Belə ki, Ermənistan təkcə müharibə dövründə yox, eyni zamanda, atəşkəs dövründə də



müxtəlif vaxtlarda Azərbaycan ərazisində olan ayrı-ayrı mülki şəxslərə qarşı silah işlətmiş, 2017-ci ildə Fizuli rayonu ərazisində yaşayan 2 yaşlı Zəhra Quliyeva nənəsi ilə birlikdə öldürülmüşdür.

Həmçinin Ermənistan tərəfinin hazırda ölkəmizin sərhədlərində törətdiyi təxribat nəticəsində mülki əhalinin yaşadığı evlər silahlı hücumlara məruz qalır. Bunun əsas məqsədi isə yerli əhalidə vahimə yaratmaq və onları yaşadıqları yerlərdən uzaqlaşdırmaqdır. Ermənistan tərəfindən mülki Azərbaycan əhalisinə qarşı silah işlədilməsi 1992-ci ildən başlamışdır. Həmin ildən etibarən Azərbaycana məxsus olan torpaqlar işğal edilmiş, nəticədə 1 milyondan çox məcburi köçkün öz ata-baba torpaqlarını tərk etməyə məcbur qalmışlar.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya əlavə edilmiş 4 saylı protokolun 2-ci bəndinə əsasən hər kəsin ölkə ərazisində sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək hüququ var. Lakin Ermənistan tərəfinin hazırda apardığı təxribat mülki əhalinin ərazini boşaltmasına istiqamətlənib. Bu səbəbdən də müxtəlif ağır artilleriya qurğuları vətəndaşların yaşadıqları evləri hədəf götürür, nəticədə ölən və yaralananlar olur.

Ermənistanın Azərbaycana olan hücumları ilə əlaqədar Birləşmiş Millət Təşkilatı tərəfindən 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edilib. Həmin qətnamələrdə Ermənistan tərəfinin Azərbaycana məxsus olan əraziləri işğal etməsi, Azərbaycan ərazisində qırğınlar törətməsi, nəticədə minlərlə insanın öldürülməsi, əsir götürülməsi və bir milyondan çox şəxsin qaçqın düşməsi təsdiq edilib. Ermənistan tərəfinin hazırda etdiyi bu hərəkətlər beynəlxalq hüququn hamılıqla qəbul edilmiş "ius cogens" normalarının ən kobud şəkildə pozulmasıdır.

Azərbaycan torpaqlarının işğal edilməsinə, ərazisində qırğınlar törədilməsinə baxmayaraq, beynəlxalq hüququn müddəalarını əsas götürür, güclü ordusunun olmasına baxmayaraq, ölkəmiz münaqişənin dinc yolla həll edilməsinin tərəfindədir. Lakin Ermənistan öz işğalçı siyasətindən bir addım da geri çəkilmir, əksinə, Ermənistan hakimiyyəti təxribatlar törətməkdə davam edir. Ermənistan tərəfinin həyata keçirdiyi təxribatçı hərəkətlərə dünyanın ədalətli qiymət verməsini tələb edirik.

# XİN: "Fransanın Overn-Ron-Alp regionu prezidentinin ermənilərin təxribatı ilə bağlı qərəzli bəyanatla çıxış etməsini pisləyirik"

"Fransanın Overn-Ron-Alp regionunun prezidenti Loran Vokenin Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən, o cümlədən iki ölkə sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən 12 iyul tarixindən etibarən törədilən hərbi təxribatla bağlı tamamilə həqiqətə uyğun olmayan və qərəzli bəyanatla çıxış etməsini qətiyyətlə pisləyirik".

AZƏRTAC xəbər verir ki, bu, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Qatı ermənipərəst mövqeyi ilə tanınan L.Vokenin rəhbərlik etdiyi və erməni icmasının çoxluq təşkil etdiyi Overn-Ron-Alp regionunun ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimlə 10 əməkdaşlıq xartiyasını imzalaması region prezidentinin mövqeyinin qərəzli xarakter daşıdığını aşkar şəkildə göstərir.

Beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərini hərbi işğal altında saxlayan Ermənistanın təcavüzkar siyasətinə haqq qazandıran bu bəyanat Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin ruhuna uyğun gəlmir, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın mövqeyinə ciddi zərbə vurur. Fransanın ikinci böyük regionunun prezidentinin bu kimi birtərəfli və reallıqdan uzaq mövqeyi Azərbaycan ictimaiyyətinin Minsk qrupunun həmsədri qismində Fransanın qərəzsiz mövqeyinə inamını sarsıdır. Bəyanat Fransanın beynəlxalq, Avropa, ikitərəfli və milli səviyyədəki öhdəliklərinə ziddir.

Azərbaycan tərəfi Fransadan Minsk qrupunun həmsədri olaraq münaqişənin həlli istiqamətində real addımlar atacağını, eləcə də Fransanın seçkili orqanlarının bəzi nümayəndələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "qurum"u təşviq edən hər hansı fəaliyyətinin qarşısının alınması üçün bütün zəruri tədbirləri görəcəyini gözləyir.

# Ali Baş Komandanın çağırışına səs verən 8500-ə yaxın vətəndaş qeydiyyata alınıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verən 8500-ə yaxın vətəndaş bu günədək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatına elektron qaydada, həmçinin qeydiyyatda olduqları yerli idarə, şöbə və bölmələrinə gələrək orduda könüllü xidmət etmək haqqında arzularını ifadə edib və müvafiq formada qeydiyyata alınıb.

Bu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd edilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti vətəndaşlarımıza göstərdikləri yüksək vətənpərvərliyə görə təşəkkürünü bildirib.

Vurğulanıb ki, zərurət yarandığı halda ehtiyatda olan hərbi vəzifəlilər mövcud qanunvericiliyin tələblərinə əsasən Xidmətin yerli struktur bölmələrinə çağırılaraq ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərə cəlb edilə bilərlər.

# Müdafiə Nazirliyinə çoxsaylı müraciətlər ünvanlanır

Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən hərbi əməliyyatlar zamanı yaranmış vəziyyətlə əlaqədar Azərbaycanın minlərlə vətənpərvər oğul və qızları, xaricdə yaşayan soydaşlarımız, ehtiyatda olan hərbi qulluqçular, müharibə əlilləri və veteranları Müdafiə Nazirliyinə müraciət ünvanlayaraq ordumuza dəstək məqsədilə hərbi xidmətə çağırılmaqla döyüşlərə qatılmalarını xahiş edirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 13-dən 17-dək Müdafiə Nazirliyinə bu mövzuda 7 minə yaxın müraciət daxil olub. Nazirlik xalqımızı, o cümlədən müraciət edən hər bir vətəndaşı həmrəylik göstərərək ordumuza dəstək olduqlarına görə alqışlayır və onlara minnətdarlıq edir.

Nazirlər Kabinetinin iyulun 15-də keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışında qeyd olunduğu kimi, hərbi xidmətə cəlb edilmək arzusunda olan vətəndaşlar öz anket məlumatını Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təqdim edə bilərlər.

"Azərbaycan Ordusu düşmənin istənilən təxribat və hücumunun qarşısını qətiyyətlə alır və bundan sonra da alacaqdır. Vətənpərvərliyə və həmrəyliyinizə görə çox sağ olun!", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# Azərbaycanda koronavirusa daha 471 yoluxma faktı qeydə alınıb, 549 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 471 yoluxma faktı qeydə alınıb, 549 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 26 min 636 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 17 min 805 nəfər müalicə olunaraq sağalıb, 341 nəfər vəfat edib. Aktiv xəstə sayı 8490 nəfərdir.

Ötən müddət ərzində 610 min 523 test aparılıb. Bugünkü test sayı isə 9023-dür.




# Operativ Qərargah: 14 şəhər və rayonda sərtləşdirilmiş xüsusi karantin rejimi 5 avqust saat 06:00-dək uzadılıb

Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılması ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə uyğun olaraq, ölkə üzrə xüsusi karantin rejimi 2020-ci il 31 avqust saat 00:00-dək uzadılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, bununla yanaşı, şəxslər arasında COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla Lənkəran şəhəri və Samux rayonunda iyulun 20-dən etibarən sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunmayacaq.

Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında isə mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 5 avqust saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi davam edəcək. Həmçinin xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda aşağıdakı tarixlərdə həftəsonları bütün ictimai nəqliyyatın hərəkəti dayandırılacaq:

**25 iyul saat 00:00-dan 27 iyul saat 06:00-dək;**

**1 avqust saat 00:00-dan 3 avqust saat 06:00-dək.**

Xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda iyulun 20-dən etibarən masaj və hamam xidməti istisna olmaqla bərbərxana, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərin göstərilməsinə icazə verilir. Eyni zamanda şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmələri üçün SMS icazənin müddəti 2 saatdan 3 saatadək artırılır.

"Mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq", - deyə Operativ Qərargahın məlumatında qeyd edilib.

# Xalq dövlətin, Ali Baş Komandanın və Ordunun ətrafında yumruq kimi birləşib



## Baş Sərkərdə Ermənistana göz dağı verdi

### İlham Əliyev işğalçı ölkənin son döyüşlərdən dərs götürmədiyi halda Azərbaycan Ordusunun sarsıdıcı zərbələrinin davam edəcəyini bəyan etdi

*Əvvəli 1-ci səh.*

Bundan sonra Ali Baş Komandan cavab tədbirləri ilə bağlı müvafiq göstərişlər verib: "Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Eyni zamanda Prezident Administrasiyasına, Nazirlər kabinetinə, aidiyyəti qurumlara göstəriş verilib ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılsın, bu hadisə haqqında dolğun məlumat verilsin".

Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Prezidentin də söylədiyi kimi, düşmənə sarsıdıcı zərbələr endirildi və bu zərbələr Ermənistana növbəti dərs oldu.

#### "Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib"

Azərbaycan Ordusu iyulun 13-14-də düşmənə sarsıdıcı zərbələr endirdi. Onlarca erməni hərbçi məhv edildi, düşmənin sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın olundu.

Ali Baş Komandanın da dediyi kimi, düşmənin hərbi obyektləri, kazarmaları, dayaq məntəqələrinin məhv edilməsi ilə bağlı yayılan videogörüntülər Azərbaycan Ordusu tərəfindən keçirilmiş əməliyyatların hələ cüzi bir hissəsidi. Beləliklə, Tovuz istiqamətində baş verən qısa döyüşlərdə Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi.

Baş Sərkərdə ordumuzun təxribata cavabını belə dəyərləndirdi: "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

Ali Baş Komandan qətiyyətlə vurğuladı ki, Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz də. Baş vermiş toqquşmalar və qanlı döyüşlər isə Azərbaycan dövlətinin, Ordusunun gücünü, xalqla iqtidar arasındakı birliyi bir daha göstərmiş oldu.

#### Yenə erməni məkri, erməni yalanı

Lakin hər dəfə törətdiyi təxribatdan sonra ağır zərbə alan Ermənistan baş verənlərə görə Azərbaycanı günahlandırmağa və ağ yalanlarla dünya birliyini inandırmağa çalışdı. Bu dəfə də eyni ssenari təkrarlandı. İşğalçı ölkə yenə iddia etdi ki, guya Azərbaycan UAZ markalı maşın ilə onların mövqelərinə hücuma keçib.

Bu, həqiqətən də olduqca gülünc və ağlasığmaz iddiadır. Əgər Azərbaycan Ordusu hücuma keçmək istəsəydi, onda UAZ-dan deyil, öz arsenalında olan güclü, dağıdıcı hərbi vasitələrdən istifadə edərdi.

Əlbəttə ki, işğalçı ölkə Azərbaycan Ordusunun Günnüt, Aprel zəfərlərini unutmur və yaxşı bilir ki, erməni hərbçisinin Azərbaycan əsgəri ilə hünər meydanında üzüzə döyüşməsi mümkün deyil. İllərdir torpaq həsrəti, yurd niskili ilə qəlbi alışıb-yanan və ən müasir silahlarla, hərbi texnikalarla təchiz edilmiş Azərbaycan əsgəri istənilən döyüşdə zəfər çalmağa qadirdir.

#### İşğalçının mənəvi cılızlığı və süni gərginlik yaratma səbəbləri

Göründüyü kimi, növbəti dəfə uğursuzluqla üzləşən Ermənistan hakimiyyəti bu dəfə də "ənənəsinə" sadiq qalaraq məsələnin mahiyyətini gizlətməyə, yalan məlumatlarla beynəlxalq və yerli ictimaiyyəti çaşdırmağa çalışır.

Əlbəttə ki, təxribatın Dağlıq Qarabağ bölgəsinə aid olmayan ərazidə baş verməsi onun çirkin mahiyyətindən, erməni tərəfinin təmas xəttində növbəti dəfə süni gərginlik yaratmaq niyyətindən xəbər verir. Bunun səbəbləri isə Azərbaycan xalqına yaxşı bəllidir.

Bu gün Ermənistanda əhalinin hakimiyyətə etimadının itməsi ilə əlaqədar dərin böhran yaşanır. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahəsində saysız-hesabsız problemlər, insan hüquq və azadlıqlarının boğulması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi baş nazir N.Paşinyan hakimiyyətini çox mürəkkəb duruma salıb. Qlobal pandemiyanın ağır zərbələr vurduğu Ermənistan daha da kəskinləşən sosial-iqtisadi problemlər fonunda vəziyyəti gərginləşdirmək və ölkədaxili problemlərdən diqqəti yayındırmağa çalışır.

Digər bir səbəb isə Azərbaycanın beynəlxalq arenada gündən-günə yüksələn nüfuzu, İlham Əliyevin qlobal təşəbbüslərinə göstərilən yüksək etimaddır. Yəni Azərbaycanın dünyada nüfuzunun, çəkisinin daha da artması, beynəlxalq mövqelərinin getdikcə güclənməsi Ermənistanı qıcıqlandırır. Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, cənab İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi Ermənistanı, erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir.

Xatırladaq ki, İlham Əliyevin dünyanın 130-dan çox ölkəsi tərəfindən BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı videokonfrans vasitəsilə dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxan yeganə ölkə Ermənistan olmuşdu. Bu, bir daha həm mənəvi cılızlığı, həm də Ermənistanda Azərbaycana fobiyanın hansı həddə çatdığını göstərir.

Ölkədaxili problemlərdən və xarici siyasətdə iflasdan diqqəti yayındırmaq məqsədilə Ermənistan hakimiyyəti belə bir avantüraya gedir və bir daha rəsmi Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı olmadığını, məqsədinin Azərbaycan ərazilərini işğalda saxlamaqdan ibarət olduğunu təsdiq edir.

Dövlət başçısının da söylədiyi kimi, bu gün dünya qlobal pandemiya ilə mübarizə aparır və Azərbaycan həmrəylik, birgə mübarizə təşəbbüsü ilə çıxış etdiyi halda Ermənistan bunun əleyhinə çıxır. İşğalçı ölkə dünya gündəliyində birinci yerdə duran koronavirusla bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha beynəlxalq ictimaiyyətin diqqətini öz çirkin siyasətinə cəlb edib. Məhz bu məkrli siyasətin nəticəsidir ki, Ermənistan artıq beynəlxalq arenada bütün dayaqlarını itirməkdədir.

#### KTMT-yə yalvarış - acizliyin, qorxaqlığın göstəricisi

Digər bir maraqlı məqam Ermənistanın bu təxribatı törədib ardınca Azərbaycan Ordusu tərəfindən layiqli cavab aldıqdan sonra dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etməsidir.

Layiqli cavabını alan işğalçı bu təşkilata müraciət edərək yardım, kömək istəyib. Guya Azərbaycan Ordusu Ermənistana qarşı təxribat törədir və ciddi təhlükə var.

Prezident İlham Əliyevin də söylədiyi kimi, KTMT-nin bu təşkilatın buna nə dəxli var? Azərbaycan Ermənistanın dövlət sərhədini pozmayıb, bu ölkənin ərazisinə keçməyib. Onda KTMT-nin bu işə nə dəxli ola bilər?

İlham Əliyev bunu yalnız Ermənistan hakimiyyətinin acizliyinin, qorxaqlığının göstəricisi adlandırdı: "Bu, onu göstərir ki, onlar Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-yə müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür. Onlar öz qorxaqlığını, rəhbərliyin qorxaqlığını bir daha göstərdilər".

Bu gün sərhəd xəttindəki operativ vəziyyət Azərbaycanı tamamilə qane edir. Ali Baş Komandan bəyan etdi ki, Azərbaycan istənilən vaxtda döyüş məntəqələrinin yeni yerləşməsindən istifadə edib öz sözünü deyəcək.

#### Mehriban xanım ƏLİYEVA: "Biz daha da güclü olmalıyıq və olacağıq, daha sıx birləşəcəyik!"

İşğalçının son təxribatları Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sıravi vətəndaşlar toplanaraq cəbhə bölgəsinə üz tutdular və silaha sarılaraq torpaqlarımızı işğaldan azad etməyə hazır olduqlarını bildirdilər.

Bu, həm də Azərbaycan cəmiyyətində vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Lakin indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığı üçün, vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar. Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

Erməni təxribatı üzündən baş verən bu döyüşlər həm də Azərbaycan Ordusunun savaş qüdrətinin, mənəvi, psixoloji üstünlüyünün, əsgər və zabitlərimizin qəhrəmanlığının, şücaətinin yeni nümunəsi sayıla bilər.

Birinci vitse-prezident Mehriban Əliyeva da rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda vurğuladı ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Çünki Azərbaycan xalqının torpaq, Vətən uğrunda mübarizəsi müqəddəsdir: "Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır!

Biz daha da güclü olmalıyıq və olacağıq, daha sıx birləşəcəyik! Şəhid analarına və atalarına öz dərin kədərimi və hörmətimi bildirirəm. Bu çətin günlərdə Azərbaycan xalqı sizinlədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgərlərimizə tezliklə şəfa versin! Allah Azərbaycanı və xalqımızı qorusun!"

Azərbaycan xalqı Vətən uğrunda canını fəda edən şəhidlərini böyük izdihamla son mənzilə yola saldı. İgid oğullarımızın bu qəhrəmanlığı Azərbaycan xalqının ümummilli birliyini daha da möhkəmləndirərək hər bir əsgərimizin savaş, döyüş ruhunu, millətin qələbə əzmini yüksəltdi. Tovuz döyüşləri ordumuzun Aprel və Günnüt zəfərlərində olduğu kimi, hər kəsi Ali Baş Komandan İlham Əliyevin ətrafında daha sıx birləşdirdi.

Cənab İlham Əliyev də bu birliyi yüksək qiymətləndirərək dedi ki, Ordumuzun uğurlu əməliyyatı hər kəsdə ruh yüksəkliyi yaradıb və xalqı coşdurub. Bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandana öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutub. Bu vətənpərvər addımı alqışlayan Prezident dedi ki, bu, bir daha Azərbaycan xalqının ağır günlərdə bir nöqtəyə vura bildiyini göstərir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Qarabağ Azərbaycandır!

**Azərbaycan dövləti, Azərbaycan Ordusu yenə öz sözünü dedi, yenə nələrə qadir olduğunu və ola biləcəyini ortaya qoydu. İşğalçı və təcavüzkar Ermənistanın növbəti təxribatının qarşısını aldı, onu böyük itkilər verdirərək geri oturtdu. İşğalçı ölkə yenə 2016-cı ilin Aprel döyüşlərinin, 2018-ci ilin Günnüt əməliyyatının acı taleyinitəkrarını yaşadı, sarsıdıcı və ölümcül zərbə aldı.**



Məhz bu zərbənin təsiridir ki, təcavüzkar dövlətin qorxaq və fitnəkar başçısı Nikol Paşinyan tələm-tələsik hay-küy salmağa, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT), bir neçə dövlətə yalvarmağa, onlardan imdad diləməyə başladı. Güclü və özünə güvənən dövlət və dövlət başçısı heç zaman bunu etməzdi, belə bir rəzilliyə razı olmazdı. Ancaq Ermənistan və Paşinyan bunu etdi, özünü bir daha biabırçı vəziyyətə saldı. Bu, bir daha göstərdi ki, Ermənistan qondarma, yarımmüstəmləkə dövlətdir, forpostdur, vassaldır, buyruq quludur. Onun heç bir zaman müstəqil daxili-xarici-hərbi siyasəti, gücü olmayıb və olmayacaq. O, həmişə və hər zaman onun-bunun xidmətçisi, buyruqçusu, ələbaxanı, sözəbaxanı olub və bu gedişlə də belə olmaqda davam edəcək. Son 5-6 gündə yaşananlar, Ermənistanın növbəti təxribatı və fitnəkarlığı nəticəsində müharibə zonasından, Qarabağdan yüz kilometrlərlə uzaqda olan, Azərbaycan-Ermənistan sərhəddinin Tovuz istiqamətində baş verən hadisələr bir daha göstərdi ki, Azərbaycan dövləti, Ordusu Qarabağ, torpaq, ərazi məsələsində indiyə qədər olduğu kimi, bundan sonra da heç bir güzəştə getməyəcək. Dövlətimiz və xalqımız Ermənistanın və onun havadarlarının qarşısından geri çəkilməyib, geri çəkilmir, bundan sonra da geri çəkilməyəcək. Tökülən şəhid qanlarını yerdə qoymayıb və qoymayacaq, onların qisasını alıb və bundan sonra da alacaq. İşğalçı dövlət və onu üzərimizə qaldıranlar ağıllanmasalar, ən azı bu günlərdə baş verənlərdən ibrət götürməsələr, nəticə çıxarmasalar, daha betərini, Aprel döyüşlərinin, eləcə də, son əməliyyatların daha ağırını və amansızını yaşayacaqlar.

Uçurumun kənarındadırlar, bundan sonra uçurumun dibinə yuvarlandırılacaqlar. Buna güclü və qüdrətli Azərbaycanın, Azərbaycan Ordusunun hər cür imkanı, potensialı var. Ən əsası isə ölkə Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin cəsarəti, qətiyyəti, iradəsi ortadadır. Dövlət başçısı bu iradəsini, bu qətiyyətini bir daha Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ortaya qoydu, bütün dünyaya nümayiş etdirdi. Bir daha bəyan etdi ki, Azərbaycan düşmən ölkənin istənilən təxribatına, istənilən hücumun ən kəskin və layiq olduqları şəkildə cavab verəcək, torpaq məsələsində heç bir güzəşt olmayacaq. Dövlət başçısı çıxışında "görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Mən Təhlükəsizlik Şurasının toplantısında artıq demişdim ki, Azərbaycan əsgər və zabitlərinin qanı yerdə qalmamalıdır. Onlara sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu" - deyərək, bildirdi ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq, son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Ali Baş Komandan, eyni zamanda, Azərbaycanda hadisələri qabaqlamağı heç kimə məsləhət görmədiyini, dövlətin öz Ordusu ilə birlikdə bütün addımları zamanında və dəqiqliklə yerinə yetirdiyini və bundan sonra da yetirəcəyini əlavə etdi. "Buna ehtiyac yoxdur. Bu, zərərli ola bilər. Nə vaxt, nəyi necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik. Bundan artıq hələ ki, nəsə demək düzgün olmaz" deyən dövlət başçısı bir daha işğalçı ölkəyə, ona havadarlıq edənlərə xəbərdarlıq etdi, sərt və birmənalı mesajlarını verdi.

"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mən bu yaxınlarda Azərbaycan telekanallarına müsahibədə öz mövqeyimi, bizim prinsipial mövqeyimizi bir daha ifadə etdim. Azərbaycan xalqının bu mənasız danışıqlardan bezdiyini ifadə etdim. Ona görə bu məsələ ilə məşğul olanlar və bu günlər ərzində öz vasitəçilik təkliflərini irəli sürənlər bu haqda düşünsünlər, Azərbaycan xalqının səbri tükənməz deyil. Bu gün biz güclü Ordu yaratmışıq. Bu gün xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin inkişafının əsas şərtidir. Ona görə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir addım geri atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bizim bu məsələ ilə bağlı fikrimiz qətidir"- deyərək, son nöqtəni qoydu. Bəli, indi növbə hər zaman qeyd etdiyimiz kimi, işğalçı və təzavüzkar ölkənindir. Onlar bu xəbərdarlıqdan ciddi nəticə çıxarmalıdır. Eyni zamanda işləri-gücləri turist səfərləri etməkdən, bəyanatlar verməkdən başqa heç nə olmayan Minsk qrupunun həmsədrləri, ATƏT, digər beynəlxalq qurumlar son baş verənlərdən ciddi dərs almalıdırlar. Artıq onların yersiz, mənasız bəyanatlarına ehtiyac yoxdur. Onlar artıq ikili, üçlü standartları, ədalətsiz yanaşmaları, işğalçı ilə işğala məruz qalanı eyniləşdirmə siyasətini bir kənara qoyub, real, konkret addımlara keçməli, Ermənistanın cəzasını, layiqli cavabını verməlidirlər. Artıq Minsk qrupunun, həmsədrlərin limiti bitir. Əgər üzərlərinə düşəni etməyəcəklərsə, o zaman Azərbaycan dövləti və Ordusu öz sözünü birdəfəlik deyəcək, işğal faktına son qoyacaq, işğal olunmuş torpaqlarımızı son qarışınacan azad edəcək. Bununla yanaşı, son hadisələr həm də "sapı özümüzdən olan baltalara", ermənipərəst anti-Azərbaycan dairələrin alətinə çevrilənlərə, ölkəni daxildən qarşıdırmaq istəyənlərə, "5-ci kolon"un nümayəndələrinə bir ibrət olmalıdır. Onlar artıq anlamalı və başa düşməlidirlər ki, qarşılarında güclü, hüquqi, demokratik, qanunlarla idarə olunan Azərbaycan dövləti var. İndiki Azərbaycan ötən əsrin 90-cı illərinin Azərbaycanı deyil. İstər onlara, istərsə də digərlərinə özlərini qanunlardan yuxarıda aparmalarına, etdikləri əməllərdən qaçıb gizlənmələrinə, Azərbaycan vətəndaşlarının hissləri ilə oynamalarına imkan verilməyəcək, xaos, anarxiya arzuları gözlərində qoyulacaq. Hər biri Azərbaycan qanunları qarşısında cavab verməli olacaq və cavab verəcəklər, öz layiqli cəzalarını alacaqlar. Dövlət başçısının da qeyd etdiyi kimi, onların hamısı məsuliyyətə cəlb ediləcək, məsuliyyətdən boyun qaçıra bilməyəcək. Bəli, son olaraq, bir daha onu qeyd etmək istəyirəm ki, Azərbaycanın Qarabağ, ərazi bütövlüyü məsələsində mövqeyi birmənalıdır, dəyişməzdir, Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanındır, Qarabağ həmişə Azərbaycanın olub, hər zaman da Azərbaycanın olacaq!

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin İntizam Komissiyasının sədri, professor***

## AHİK-dən beynəlxalq həmkarlar ittifaqları təşkilatlarına müraciət

**AHİK-in sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyev Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində dövlət sərhədindəki təxribatla bağlı Beynəlxalq Həmkarlar İttifaqları təşkilatlarına, o cümlədən, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasına, Pan Avropa Regional Şurasına, Ümum Həmkarlar İttifaqları Konfederasiyasına müraciət ünvanlayıb. Müraciətdə deyilir:**



Hörmətli həmkarlar!

Bildiyiniz kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi - Dağlıq Qarabağ regionu və ona bitişik 7 rayon erməni hərbi birləşmələri tərəfindən işğal olunmuşdur. Erməni silahlı qüvvələri beynəlxalq humanitar hüququn bütün prinsip və normalarına zidd olaraq mülki əhalini məqsədyönlü şəkildə əsas hədəf kimi seçərək amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan çox azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə öldürülüb, 50 min nəfər isə əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb. Onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı isə ermənilər tərəfindən əsir və girov götürülmüşdür.

Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli mədəniyyət və incəsənət abidələrimiz erməni vandalları tərəfindən dağıdılmışdır.

Ermənistan Respublikası özünün məkrli niyyətlərini davam etdirmək məqsədilə bu gün zəbt olunmuş ərazilərdə xarici dövlətlərdən gələn erməni vətəndaşlarını yerləşdirir və Dağlıq Qarabağda demoqrafik vəziyyəti süni surətdə öz xeyirlərinə dəyişmək istəyir.

Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1993-cü ildə - 822, 853, 874 və 884 saylı 4 qətnamə qəbul edib. Bu qətnamələr münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli üzrə siyasi prosesin hüquqi əsasını müəyyənləşdirir. Qətnamələrdə Azərbaycan ərazisinin işğalı pislənib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb. Azərbaycan ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ilə yanaşı, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Avropa İttifaqı, Avropa Şurası, ATƏT, Qoşulmama Hərəkatı ölkələri və digər beynəlxalq təşkilatlar Azərbaycanın hərbi təcavüzə məruz qaldığını və ərazi bütövlüyünün bərpa olunması ilə bağlı öz mövqelərini ortaya qoyduqları halda Ermənistan Respublikası bu tələbləri heçə sayır. Bu münaqişənin dondurulmasına çalışır. Vaxtaşırı öz təcavüzkar siyasətini həyata keçirmək üçün münaqişənin alovlandırılması yolunu tutur.

Bu gün Ermənistan Respublikasının silahlı qüvvələri atəşkəs rejimini pozaraq Azərbaycanın dinc əhalisinə qarşı qətllər törətməkdə davam edir.

Qanlı toqquşmalara yol verilməməsi naminə atəşkəs rejiminin tətbiq olunmasına baxmayaraq iyul ayının 12-də Ermənistan hərbi qüvvələri Dağlıq Qarabağ ərazisi ilə hec bir əlaqəsi olmayan Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycanın silahlı qüvvələrinin mövqelərinə qəfildən və xaincəsinə hücum edərək növbəti hərbi təxribat törətmişdir. Erməni rəhbərliyi birinci dəfə deyildir ki, öz ölkəsi daxilində üzləşdiyi və həlli qarşısında aciz qaldığı ağır problemlərdən sərhəddə və ya təmas xəttində iyrənc hərbi təxribatlar törətməklə yaxa qurtarmağa çalışır. Ağır epidemioloji vəziyyətdən və sosial-iqtisadi sıxıntılardan cana doymuş xalqın qəzəbindən yayınmaq üçün Paşinyanın diktatura rejiminin hərbi təxribatlara əl atması onun yürütdüyü siyasətin Ermənistanın əvvəlki xunta rejimlərinin yürütdüyü siyasətdən azacıq də olsa fərqlənmədiyinin göstəricisidir. Erməni silahlı qüvvələrinin hücumu nəticəsində 12 hərbçimiz, o cümlədən yüksək çinli zabitlərimiz həlak olmuş, sərhəd kəndlərinin sakinlərinə məxsus xeyli sayda evlər dağılmışdır. Hətta hücum nəticəsində hərbçilərlə yanaşı, sərhəd kəndlərin dinc sakinləri arasında da tələfat baş vermişdir.

Hörmətli həmkarlar!

Hesab edirik ki, Beynəlxalq Həmkarlar İttifaqları təşkilatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində təcavüzkarın və münaqişə nəticəsində zərərçəkən tərəflərin kim olduğu barədə məlumatlıdır. Ümidvarıq ki, onlar Ermənistanın təcavüzkar hərəkətlərinə son qoyulması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi və Ermənistanın silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən çıxarılması sahəsində ölkəmizin haqlı tələbinin yerinə yetirilməsi üçün ədaləti mövqe sərgiləyəcək, Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar BMT-nin və beynəlxalq qurumların qətnamə və qərarlarının yerinə yetirilməsi üçün müvafiq təşkilatlar qarşısında tələblər irəli sürəcəklər.

## CƏBHƏ BÖLGƏSİNDƏ HƏYAT ÖZ AXARINDADIR

# Dövlət qayğısından güc alanlar

**Ağdam tarixin bütün zamanlarında şöhrət ünvanı olub. Mənsub olduğu təbii sərvətləri, güclü iqtisadi potensialı, kökdən-soydan qaynaqlanan milli-mənəvi və mədəni dəyərləri bu bölgəni həmişə diqqət mərkəzində, gündəmdə saxlayıb. Bu yerin torpağı münbit, havası təmiz, suyu saf, adamları qürurlu və qoçaqdırlar. 30 ilə yaxındır ki, Ağdam və ağdamlılar zamanın ağır sınaqlarına dözmək zorunda qalıblar. Ermənistan silahlı qüvvələri güclü havadarlarının köməyi ilə bütövlükdə Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ağdam rayonu ərazisinin də dörddəüç hissəsi düşmən işğalı altındadır.**



İllər boyu isti yuvası, doğma ev-eşiyi odlara qalanıb viran qoyulan, şəhərləri, kəndləri amansızlıqla dağıdılan Ağdamın sakinləri məcburi köçkün kimi ölkənin bütün bölgələrinə səpələnib, yük vaqonlarında, çadır şəhərciklərində qarğı-qamışdan tikilmiş daxmalarda isti yayı, soyuq qışı çox ağır şəraitdə yaşamalı olublar. 2003-cü ildə prezident seçkilərinə qatılan İlham Əliyev Bərdə rayonu ərazisində yerləşən Türk "Qızıl ay" çadır şəhərciyində məskunlaşan, əksəriyyəti ağdamlılar olan məcburi köçkünlərlə görüşündə bəyan etdi ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq. Şərəflə reallaşan bu vəd sayəsində minlərlə ailə mənzil rahatlığına qovuşdu. Ağdam rayonu ərazisində salınan 18 qəsəbədə indi 7000 ailə, bütövlükdə 27 min nəfər yaşayır. Yeni salınan yaşayış qəsəbələrinin hamısında zəruri infrastruktur da yaradılmışdır.

Prezident İlham Əliyevin bu cəbhə bölgəsinə davamlı qayğı və diqqəti həyatın bütün sahələrini əhatə edir. Rayonun yol infrastrukturu müasir tələblər səviyyəsində yenidən qurulur, kəndlərə yeni asfalt yollar çəkilir. Sahibkarlığın inkişafı yolunda yandırılan yaşıl işıq rayonda yeni istehsal və emal sahələrinin yaradılmasını şərtləndirir, çox sayda yeni iş yerlərinin açılması ilə müşahidə olunur. İşğal nəticəsində təbii su mənbələrindən məhrum olan rayonda dövlət başçısının sərəncamı ilə son iki ildə 61 subartezian quyusu qazılmışdır. Bu isə rayonda suvarma suyuna və içməli suya olan ehtiyacın ödənilməsində əhəmiyyətli addım kimi dəyərləndirilməlidir. Hazırda rayon ərazisindəki subartezian quyularının sayı 980-ə çatır.

Dövlətin qayğısından güc alan ağdamlılar aqrar sektorun inkişafı istiqamətində böyük uğurlara imza atırlar. Ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə dövlət başçısının çağırışına Ağdam kəndlisi sanballı töhfələr verir. Keçən il 2600 hektar sahədə pambıq əkilib-becərilmiş, 7000 ton "ağ qızıl" istehsal olunmuşdur. Orta məhsuldarlıq 26 sentnerə çatdırılmışdır ki, bu da ölkənin pambıqçılıq rayonları arasında qazanılan yüksək nəticələrdən sayılır. Bu il isə 2120 hektar sahədə pambıq əkilmişdir. Becərmə yüksək aqrotexniki qaydalar əsasında davam etdirilir. Cari ilin hədəfi məhsuldarlığı 30 sentnerə çatdırmaqdır.

Ağdamlılar koronavirus pandemiyası ilə bağlı sağlamlıqlarını qorumaq üçün vacib şərtlərə əməl etməklə kənd təsərrüfatı işlərini uğurla davam etdirirlər. Rayonda taxıl biçini kampaniyası müvəffəqiyyətlə başa çatdırılmışdır. 14347 hektar sahədə biçin aparılmış, 57480 ton taxıl istehsal edilmişdir. Bu, keçən ildəkindən 3,5 faiz, yaxud 1950 ton çoxdur. Taxıl zəmilərinin orta məhsuldarlığı əvvəlki illə müqayisədə 1,7 sentner artaraq 40,1 sentner təşkil etmişdir. İndiyədək 18422 ton soğan, 5333 ton kartof istehsal edilmişdir.

Cari ilin altı ayı ərzində heyvandarlıq məhsulları istehsalında da artıma nail olunmuşdur. 2339 ton ət, 19 595 ton süd, 9 milyon 510 min ədəd yumurta istehsal olunmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.

Fərəh doğuran bu rəqəmlərin, dinamik sosial-iqtisadi inkişafın mayasında heç şübhəsiz dövlətin davamlı qayğısı dayanır. Qazanılan uğurlar, eyni zamanda, bütün varlığı ilə torpağa bağlı Ağdam kəndlisinin halal zəhmətinin, fədakar əməyinin və rayon rəhbərliyinin dövlət maraqlarına məsuliyyətli münasibətinin, peşəkar təşkilatçılıq bacarığının nəticəsidir.

Ağdama sıradan bir inzibati ərazi, kənd təsərrüfatı rayonu kimi baxmaq yanlış olar. Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənovla söhbət bizdə o qənaəti yaratdı ki, Ağdamın idarə edilməsinin digər rayonlardan əsaslı şəkildə fərqlənən özünəməxsus spesifik xüsusiyyətləri var. Müharibənin fəsadları bu bölgədə təkcə yaşayış məntəqələrini viran qoymaqla, ərazidəki infrastrukturu dağıtmaqla məhdudlaşmayıb. Müharibə ən böyük zərbəni insanların həyat tərzinə, əhvali-ruhiyyəsinə, psixologiyasına vurmuşdur. Vaqif müəllim deyir ki, ev-eşiyi, uzun illər boyu qazandıqları, arzuları-istəkləri müharibə alovunda yanıb külə dönən, ümidsizliyin bir addımlığında qərar tutan insanları dinləmək çox ağırdı. Dövlətdən kömək uman hər hansı bir nəfərin üzləşdiyi, qarşısında aciz qaldığı problemə necə soyuqqanlı olasan?

Müsahibimizin söhbətində incə məqamlar kifayət qədər çoxdur. Deyir ki, bəzən elə məsələ üçün müraciət edirlər ki, onun icra hakimiyyətinin səlahiyyətinə dəxli yoxdur. Amma ümidlə gəldiyi ünvandan kimsəni ümidsiz qaytarmaq olmaz: "Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, mən xalqın xidmətçisiyəm. Dövlət başçısının bu aydın və birmənalı mövqeyi rayon rəhbəri olaraq bizim fəaliyyətimizə konkret istiqamət verib".

Söhbətdən məlum olur ki, bu yaxınlarda Üçoğlan kəndindən icra hakimiyyətinə 20 nəfər gəlmişdi. Susuzluqdan korluq çəkdiklərini dedilər. Məsələ araşdırıldı, aydın oldu ki, şikayətləri haqsızdı. Suvarma üçün qazılmış quyudan ayrı-ayrı evlərə, həyətlərə çəkilmiş su xətlərini Subartezian İdarəsi bağlamışdır. Başçının məsələyə müdaxiləsi problemi aradan qaldırdı. Subartezian quyusunun yaxınlığına çən qoymaqla evlərə suyu bərabər qaydada paylamaq quyunun suvarma təyinatını dəyişməmək şərti ilə mümkün oldu. Əlbəttə, bundan ötrü əlaqədar yuxarı təşkilata zəng vuruldu, xahiş edildi. Beləcə, bir qrup kənd sakinini narahat edən çətinlik aradan qaldırıldı.

Ağdamda sağlam mənəvi-psixoloji mühitin formalaşmasının bir əsas səbəbi də rayon rəhbərinin sosial ədalət prinsiplərinə son dərəcə hassaslıqla yanaşmasıdır.

Çəmənli kənd ərazi vahidi üzrə icra nümayəndəsi Mobil Quliyev işində yol verdiyi nöqsanlara görə tutduğu vəzifədən azad edilib. Sonradan iş üçün müraciət edən M.Quliyevin xahişini nəzərə alan icra başçısı Vaqif Həsənov ixtisasına uyğun olaraq onun Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzində aqronom vəzifəsinə təyinatı üçün Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyindən xahiş edir və Mobil yüksək maaşlı işlə təmin olunur. Bir müddətdən sonra Mobil icra başçısının qəbuluna yeni tələblə gəlir. Deyir ki, uşaq bağçasında işləyən qızı başqa kəndə köçdüyü üçün onun yerinə gəlinini işə götürsünlər. Aldığı cavab Mobili məyus edir. Uşaq bağçasındakı boş iş yerinə kəndin ən imkansız ailələrindən birinin üzvünün götürüləcəyinə qərar verilir. Bu, əslində xırda məsələdir, əhəmiyyətsiz görünə bilər. Ancaq məsələnin bu cür qoyuluşu Çəmənli kənd camaatında böyük məmnunluq yaradıb. Elin gözü tərəzidir, deyirlər.

Rayon icra hakimiyyəti dövlətin yerlərdəki simasıdır. Onun fəaliyyətsizliyindən, qanuna zidd əməllərindən narazı qalanlar əslində dövlətdən incik düşürlər. Vaqif müəllim deyir ki, buna qətiyyən yol vermək olmaz. İcra hakimiyyətinə üz tutan sevincini bölüşməyə gəlmir. Onu gətirən üzləşdiyi çətinlik, həllinə gücünün çatmadığı problemdir. Özünü onun yerinə qoyub şikayətini səbirlə dinləməlisən. Bu, idarəetmədə ən vacib məqamdır. Burada hazır reseptlər qətiyyən işə yaramır. Reallıq ciddi şəkildə nəzərə alınmalıdır.









Bu gün Ağdamın düşmənlə təmas xəttinə yaxın kəndlərində 50 min nəfər əhali yaşayır. Hər gün güllə səsləri, həyəcan, narahatlıq, irili-xırdalı məişət problemləri və s. bütün bunlar adamların əhvali-ruhiyyəsinə, psixikasına, davranışına yetərincə neqativ emosiyalar qatır. Hətta zəif xarakterə malik olanları nəzərəçarpacaq dərəcədə aqressivləşdirir. Belədə rayon rəhbərinin haqqı yoxdur ki, hər hansı problem üçün icra hakimiyyətinə üz tutan bir vətəndaşı soyuq qarşılasın, biganəlik göstərsin. Əgər sən onu səmimiyyətlə qəbul edib qayğı göstərsən, problemini həll edə bilməsən belə, gedən də "sağ ol" deyib, təşəkkürünü bildirir.

Rayonda abadlıq-quruculuq işləri də aparılır. Xındırıstan kəndində həyata keçirilən tədbirlər daha çox diqqət çəkir. Qədim tarixə malik, görkəmli şəxsiyyətlər yetişdirmiş Xındırıstan bu gün abad qəsəbəyə çevrilmişdir. Kənddəki məscid baxımsızlıqdan uçub-dağılmış, yararsız hala düşmüşdü. Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənovun təşəbbüsü ilə məscid əsaslı şəkildə yenidən qurulub gözəl görkəm aldı. Ətrafındakı bir hektarlıq ərazidə istirahət parkı salındı. Yaxınlıqda məişət evi kimi tanınan yararsız hala düşmüş bina əsaslı təmir olundu. İndiyədək Bərdədə fəaliyyət göstərən Ağdam arxivinin bu binaya köçürülməsini rayon sakinləri böyük məmnunluqla qarşılayırlar. Niyə də olmasın axı, bundan sonra arxivdən bir arayış almaq üçün saatlarla vaxt, xeyli vəsait itirib qonşu rayona getməyə ehtiyac qalmayacaq. Rayon vergi şöbəsi də həmin binada münasib yerlə təmin olunub.

Əhmədağalı kəndində dövlət vəsaiti xərcləmədən rayon icra hakimiyyətinin təşəbbüsü ilə 55 yerlik uşaq bağçası inşa edilib sakinlərin istifadəsinə verilmişdir.

Məcburi köçkünlük dövründə rayonda rahat bir qonaq evinin olmaması Ağdamın hər zaman açıq olan süfrəsi, gerçək qonaqpərvərliyi ilə bir araya sığmırdı. Rayona gələn qonaqlar ya qonşu Ağcabədidə, ya da Bərdədə gecələməli olurdular. Yenə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənovun təşəbbüsü ilə bir manat dövlət vəsaiti xərclənmədən yaraşıqlı, hər cür rahatlığı olan, eyni vaxtda 20 nəfər qəbul etməyə qadir qonaq evi keçən il tikilib istifadəyə verildi.

Bir zamanlar ölkənin ticarət mərkəzlərindən biri kimi tanınan Ağdamda bu sahə yenidən canlanır. Quzanlı bələdiyyəsinin ərazisində yeni bazar inşa olunmuşdur. Burada azı 50 nəfər üçün yeni iş yeri açılıb. Yaxınlıqdakı bir hektarlıq ərazi yaxın gələcəkdə bazarı daha da genişləndirməyə imkan verir. Artıq ayrı-ayrı fiziki şəxslər həmin ərazidə mağaza tikmək üçün yer ayrılmasından ötrü bələdiyyəyə müraciət edirlər.

Rayona kənardan investisiya cəlb edilməsi sahəsində də uğurlu addımlar atılır. Yaponiya səfirliyinin xətti ilə Paşabəyli kəndində 40 yerlik uşaq bağçasının tikintisi başa çatmaq üzrədir. Yaponiya səfirliyi ilə işgüzar əlaqələrin nəticəsidir ki, rayon ərazisində 2 ədəd içməli su artezian quyusu qazılmışdır.

Hər il bir şəhid ailəsinə bütün avadanlıqları ilə birlikdə yaşayış evi tikilməsi hərəkatına start verilmişdir. Bu şərəfli öhdəliyi Ağdamdan kənarda yaşayan imkanlı ağdamlılar götürmüşlər. Kənarda yaşayan imkanlı iki iş adamı hazırda Quzanlı - Xındırstan yolunun kənarında hər birinin sahəsi 1000 kvadratmetr olan iki ticarət mərkəzi inşa etdirir.

Bu gün Ağdamda təqdir olunası, məqbul sayılası, nümunə göstəriləsi işlərlə yanaşı, narahatlıq doğuran problemlər də mövcuddur. Rayonda müasir memarlıq abidəsi kimi araya-ərsəyə gələn "Muğam evi" dövlətin milli-mənəvi dəyərlərimizə, Qarabağ musiqi sənətinə verdiyi çox böyük töhfədir. Burada dövlət rəhbərlərinin də iştirak etdiyi mühüm əhəmiyyətə malik tədbirlər hələ də yaddaşların şirin xatirəsi kimi yaşayır. Amma Mədəniyyət Nazirliyi Ağdam "Muğam evi"ni öz balansına götürmək istəmir. İcra hakimiyyətinin başçısı Vaqif Həsənov dəfələrlə yazılı və şifahi formada nazirliyə müraciətlər etsə də, nəticəsi yoxdur. Axı belə möhtəşəm bir mədəniyyət müəssisəsinin normal fəaliyyət göstərməsi üçün vəsait ayrılmalı, ştatlar müəyyən edilməlidir. "Muğam evi" balansa götürülməsə, bunları etmək mümkün deyil.

Bu günlər Tovuz rayonu ərazisində Ermənistanla sərhəddə düşmənlərimizin törətdiyi növbəti təxribat ölkəmizin hər yerində olduğu kimi, Ağdamda da böyük əks-səda doğurub. Bölgədə döyüş ruhu, düşməndən qisas almaq istəyi ən yüksək həddə çatıb. Hər kəs silaha sarılmağa, vətənimizi, torpağımızı işğaldan azad etmək üçün müqəddəs savaşa atılmağa hazır olduğunu bildirir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***









## Azərbaycanın yəhudi icmaları Ermənistanın Azərbaycan ilə sərhəddə törətdiyi növbəti provokasiya ilə əlaqədar Prezidentə müraciət qəbul ediblər

Azərbaycanın yəhudi icmaları Ermənistanın Azərbaycan ilə sərhəddə törətdiyi növbəti provokasiya ilə əlaqədar Prezidentə müraciət qəbul ediblər.

AZƏRTAC-a daxil olmuş müraciətdə deyilir: “Azərbaycanın yəhudi icmaları 2020-ci il iyulun 12-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş təcavüz aktlarını qətiyyətlə pisləyirlər. Bu aktlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına ciddi əngəldir. Belə təcavüzlər Ermənistan ilə Azərbaycan arasında silahlı münaqişəni daha da kəskinləşdirir, beynəlxalq hüququ, habelə Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında 1994-cü ildə imzalanmış ikitərəfli sazişi pozur.

Ermənistan tərəfindən bu hücum nəticəsində hərbi toqquşmalarda Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksəkvəzifəli hərbçilər, bir dinc sakin öldürülüb, yaralananlar var. Ermənistanın bütün hərəkətləri onun özünün də üzv olduğu beynəlxalq təşkilatların qəbul etdiyi hüquqi sənədlərə ziddir.

Cənab Prezident, bu gün millətindən və dini etiqadından asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşı Azərbaycan xalqı ilə və Sizinlə həmrəydir və Azərbaycanda məskunlaşmış bütün xalqlar buna görə böyük qürur duyurlar. Beynəlxalq birlik də Azərbaycanın bütün xalqlarının bu möhkəm birliyi və Sizin müdrik rəhbərliyinizlə bizim cəmiyyətdə yaranmış həmrəy fikri görməlidir.

Azərbaycan yəhudiləri bütün beynəlxalq təşkilatlara, ATƏT-in Minsk qrupuna müraciətlə ciddi təhqiqat aparılmasını tələb edirlər ki, Tovuz rayonunda indiki hərbi əməliyyatlar genişlənərək növbəti müharibəyə çevrilməsin, aparıcı beynəlxalq təşkilatlar Ermənistanı beynəlxalq hüquqa riayət etməyə - bu provokasiyanı dayandırmağa, atəşkəsə, habelə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrində göstərildiyi kimi, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasına çağırsınlar.

Biz, Azərbaycanın çoxminlik yəhudi icmaları bu provokasiyanı qətiyyətlə pisləyirik və Ermənistanın Azərbaycana qarşı törətdiyi provokasiyaya, elan edilməmiş yeni müharibə başlamağa görə cavab verməsini tələb edirik!

Bu günlərdə Azərbaycanın bütün yəhudi əhalisi, habelə dünya yəhudiləri birliyi Sizin və Azərbaycan xalqının ətrafında sıx birləşiblər və Sizin ilk çağırışınızla Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizəyə qoşulmağa həmişə hazırıq! Müdriklər deyiblər: “Xoşbəxt o kəsdir ki, öz evində xoşbəxtdir”. Azərbaycan bizim doğma evimizdir və yəhudilər bu münaqişənin ədalətli həlli uğrunda, Azərbaycanda sülh və xoşbəxtlik uğrunda mübarizəyə daim hazırdırlar!”

Azərbaycan Prezidentinə müraciəti Azərbaycan Respublikası Milli Məclisinin deputatı Anatoli Rafailov, Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Azərbaycan Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski imzalayıblar.

## GUAM Parlament Assambleyasının sədri Ermənistan-Azərbaycan sərhədindəki son qarşıdurmalarla bağlı bəyanat yayıb

“Biz Azərbaycanın Tovuz rayonunda həm hərbçilərin, həm də mülki şəxslərin həlak olmasına səbəb olan, Ermənistan-Azərbaycan sərhədi boyunca Ermənistan silahlı qüvvələri tərəfindən zorakılığın artmasından olduqca narahatıq. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və Ermənistan Respublikasını təcavüzkar hərbi siyasət və təxribata dərhal son qoymağa çağırırıq”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistan-Azərbaycan sərhədindəki son qarşıdurmalarla əlaqədar GUAM Parlament Assambleyasının sədri Elnur Allahverdiyevin bəyanatında yer alıb.

Bəyanatda deyilir: “Biz təəssüf edirik ki, Azərbaycan ərazilərinin, yəni Dağlıq Qarabağ və ətraf yeddi rayonun erməni işğalı 30 ilə yaxındır ki, davam etməkdədir. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb etməsinə baxmayaraq, Ermənistan beynəlxalq birliyə etinasızlıq göstərməyə davam edir. Sərhəd boyunca Ermənistan tərəfindən törədilmiş son zorakılıq rəsmi Yerevanın Azərbaycan torpaqlarının işğalına son qoymaqda və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaqda maraqlı olmamasının daha bir əyani sübutudur.

Biz beynəlxalq birliyin COVID-19 ilə mübarizə apardığı bir zamanda Ermənistanın BMT Baş katibinin COVID-19 səbəbindən ümumbəşəri atəşkəsə dair təşəbbüsünü dəstəkləyərək öz üzərinə götürdüyü öhdəliyə əməl etməyərək Azərbaycana qarşı hücuma başlaması faktından olduqca narahatıq.

Biz aşkar şəkildə üzv olduğu hərbi-siyasi təşkilatların Azərbaycan Respublikası ilə münaqişəyə cəlb edilməsi məqsədini güdən Ermənistan Respublikasının təhlükəli hərbi addımlarını diqqətlə izləyirik. Ermənistanın bu məqsədi qəbuledilməzdir. Belə ki, Cənubi Qafqaz regionunda siyasi-hərbi vəziyyət artıq olduqca həssasdır və regiondankənar hər hansı müdaxiləyə davam gətirə bilməz.

Buna görə də biz Ermənistan Respublikası rəhbərliyini gələcək eskalasiyanın qarşısını almaq üçün dərhal Azərbaycan ilə sərhəddə bütün hərbi əməliyyatlara və silahlı qarşıdurmalara son qoymağa, atəşkəs rejimini bərpa etməyə və gərginliyi artıran hər hansı addımlardan çəkinməyə, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kimi beynəlxalq norma və prinsiplərə müvafiq olaraq münaqişənin dərhal həlli ilə əlaqədar öhdəliklərini icra etməyə çağırırıq.

Ermənistan-Azərbaycan sərhədində son dövrdə şiddətin artması və qalmaqda olan gərginlik və hərbi əməliyyatları nəzərə alaraq, mən sədr olaraq növbəti həftədə Ermənistan Respublikasının Azərbaycana qarşı zorakılığı və onun səbəb olduğu nəticələrin müzakirəsi üçün GUAM Parlament Assambleyasının növbədənkənar Büro iclasının keçirilməsinə çağırış edirəm”.

## Tacikistan Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsi ilə bağlı narahatlığını ifadə edib

Tacikistan Respublikası Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsi və insan itkiləri ilə nəticələnən silahlı insidentlə bağlı hədsiz dərəcədə narahatlığını bildirir.

AZƏRTAC xəbər verir ki, Tacikistan Xarici İşlər Nazirliyi bununla əlaqədar bəyanatla çıxış edib. Bəyanatda deyilir: “Tərəfləri vəziyyətin daha da mürəkkəbləşməsinin qarşısını almaq üçün maksimal dərəcədə təmkin nümayiş etdirməyə və atəşkəs rejiminə riayət etməyə çağırırıq.

Ümidvar olduğumuzu bildiririk ki, Azərbaycan və Ermənistan yaranmış məsələlərin həllində mümkün qədər tez bir müddətdə siyasi-diplomatik üsulların istifadəsinə qayıdacaqlar.

Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı veririk”.

## Azərbaycanlı gənclər #KarabakhisAzerbaijan, #StopArmenianAgression həştəqlərini dünya trendi edib

Qlobal pandemiya səbəbindən bütün münaqişə və müharibələrin dayandırıldığı bir dönəmdə Azərbaycanın dövlət sərhədində işğalçı Ermənistanın xaincəsinə hərbi təxribatlar törətməsi və bununla bağlı sosial media şəbəkələrində dezinformasiyalar yayması Azərbaycan Diaspor Könüllüləri və diaspor gəncləri tərəfindən hiddətlə qarşılanıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə “Karabakh is Azerbaijan!” platformasında birləşən azərbaycanlı diaspor gəncləri, xalqımızın gənclər qanadı və vətənsevər övladları birlikdə iyulun 13-dən başlayaraq sosial şəbəkələrdə, xüsusilə “Twitter”də ölkəmizin dövlət sərhədində Ermənistan tərəfindən törədilmiş təxribatla bağlı həqiqəti əks etdirən informasiyalar paylaşıblar.

Gənclər “Facebook” və “Twitter”də Dağlıq Qarabağ həqiqətləri, ermənilərin Qarabağda və ətraf ərazilərdə törətdikləri vəhşiliklər, hazırda cəbhədə baş verən təxribatlar haqqında, #KarabakhisAzerbaijan, #Karabakh, #StopArmenianAgression, #StopArmenianOccupation həştəqlərindən istifadə etməklə, facebook.com və twitter.com sosial şəbəkələrində 1000-lərlə foto, video və digər məlumatlar paylaşıblar. Azərbaycanlı gənclər sözügedən həştəqlərlə, ümumilikdə 100 minə yaxın paylaşım ediblər. Ölkəmizdə və xaricdə yaşayan gənclərimizin birlik, həmrəylik nümayiş etdirmələri nəticəsində 14-15 iyul tarixlərində twitter.com sosial şəbəkəsində qeyd edilən həştəqlər dünya trendinə düşüb ki, bu da ümummilli məsələlərdə azərbaycanlı gənclərin birliyinin bariz nümunəsidir.

Xatırladaq ki, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə “Karabakh İs Azerbaijan!” “YouTube” kanalı yaradılıb. Azərbaycan Diaspor Könüllüləri, diaspor gəncləri ilə birlikdə, Qarabağ həqiqətləri - onun tarixi, mədəniyyəti, musiqisi, şəxsiyyətləri, əhalisi, adət-ənənələri, təbiəti, mətbəxi və s. haqqında Azərbaycan, ingilis, rus və digər dillərdə videoçarxlar hazırlayaraq kanal vasitəsilə yayımlayırlar. Məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək və bu istiqamətdə həqiqətləri müxtəlif dillərdə dünyaya bir daha bəyan etməkdir.

## Xaricdə yaşayan soydaşlarımız etiraz aksiyası keçirərək dünya birliyini Ermənistanın təcavüzkarlığına son qoymağa çağırıblar









İyulun 17-də ABŞ-ın Azərbaycan icmasının üzvləri Ermənistanın Vaşinqtondakı səfirliyi qarşısında erməni silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətindəki dövlət sərhədində təxribat törətməsi və Ermənistanın 30 ildən çox Azərbaycana qarşı davam edən təcavüzü ilə bağlı etiraz aksiyası keçirib.

Aksiyada Azərbaycan icmasının Vaşinqtonda, Pittsburqda və ABŞ-ın digər şəhərlərində yaşayan üzvləri iştirak ediblər. Aksiyaya türk icmasının üzvləri də qatılıb.

Nümayişçilərin əllərindəki plakatlarda Ermənistanın Azərbaycana qarşı təcavüzü və rəsmi Yerevanın qeyri-müstəqil və vassal olduğu haqqında faktlar əks olunub. Bannerlərdə dünya birliyinə müraciətlə ermənilərin törətdiyi Xocalı soyqırımını dövlət səviyyəsində tanımaq şüarları, həmçinin erməni rəhbərliyinin hərbi cinayətkar olması haqqında məlumatlar yer alıb.

Azərbaycan icma üzvləri Ermənistanın Vaşinqtondakı diplomatik missiyasının rəhbərlərinə müraciət edərək, erməni təcavüzkarlarının Azərbaycanın torpaqlarından rədd olunmasını tələb ediblər.

Aksiya zamanı “Ermənistan qeyri-müstəqil nökər dövlət”, “Erməni terrorunu pisləyin!”, “Xocalı qırğını bir daha təkrarlanmamalıdır!”, “Ermənistan etnik təmizləmədə təqsirkardır!”, “Ermənistana ar olsun!”, “Ermənistan, Qarabağdan rədd ol!”, “Uşaq qatilləri!”, “Ermənistan vassal dövlətdir!”, “Amerikalı vergiödəyicilərindən pul dilləndiyiniz yetər!”, “Biz Xocalını unutmayacağıq!”, “Azərbaycan torpaqlarından əl çəkin!”, “Ermənistan, beynəlxalq hüquqa riayət et!”, “Paşinyana ar olsun!”, “Köçaryan, Sarkisyan, Ohanyan cinayətkardırlar” və sair şüarlar səslənib. İcma üzvləri Ermənistan hökumətini Azərbaycanın Dağlıq Qarabağ regionunun digər yaşayış məntəqələrində, o cümlədən Malıbəyli, Quşçular, Ağdaban və Qaradağlıda da dinc azərbaycanlı əhalinin kütləvi şəkildə qətlə yetirilməsi faktlarını tanımağa çağırıblar. Aksiya iştirakçıları Ermənistanı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərini yerinə yetirməsinə çağırışlar ediblər.

Həmçinin Azərbaycan girovlarının azad olunmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün şəraitin yaradılmasını tələb ediblər. İcma üzvləri Tovuzda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin adlarını bir-bir sadalayaraq, onların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Etiraz aksiyasının iştirakçıları sonra Türkiyənin Vaşinqtondakı səfirliyinin qarşısına yürüş edərək qardaş ölkəyə Azərbaycan xalqı adından bu çətin günlərdə göstərdiyi dəstəyə görə təşəkkürlərini bildiriblər. Bundan sonra, aksiya iştirakçıları “Şəhidlər ölməz, Vətən bölünməz” şüarlarını səsləndirərək, Azərbaycan səfirliyinə yürüş ediblər. Ermənistan səfirliyindən Azərbaycan səfirliyinə kimi yürüş edən etiraz iştirakçılarının mühafizəsini təmin etmək üçün Vaşinqton polisi yolları bağlayıb, yolboyu aksiya iştirakçılarını müşayiət edib.

Şəhid olmuş Azərbaycan hərbçilərinin xatirəsi Azərbaycan səfirliyində də bir dəqiqəlik sükutla yad edilib.

Ermənistan səfirliyi qarşısında keçirilən etiraz aksiyasında 160 nəfərə yaxın icma üzvü iştirak edib. Qeyd edək ki, ABŞ Azərbaycanlılar Şəbəkəsi Tovuzda erməni silahlı qüvvələrinin təxribatı və təcavüzü ilə bağlı ABŞ qanunvericilərinə ünvanlanmış bir neçə məktub kampaniyası keçirir.

***

İyulun 17-də Böyük Britaniyadakı Azərbaycan icmasının üzvləri Ermənistanın Londondakı səfirliyi qarşısında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətində təxribatlar törətməsinə etiraz olaraq aksiya keçiriblər.

150 nəfərədək soydaşımızın iştirak etdiyi aksiyaya Britaniyadakı türk icmasının üzvləri də qoşulublar.

Aksiya zamanı “Qarabağ bizimdir, bizim olacaq”, “Azərbaycan torpaqlarından əl çəkin!”, “Ermənistan, Qarabağdan rədd ol!”, “Biz sülh və ədalət istəyirik” və sair şüarlar səsləndirilib.

Nümayişçilərin əllərindəki plakatlarda Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı faktlar əks olunub.

Aksiya Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, dinc aksiya zamanı Ermənistanın Britaniyadakı vətəndaşları müxtəlif təxribat xarakterli hərəkətlərə cəhd etsələr də, soydaşlarımız təmkinlilik göstəriblər.

***

“Ermənistan təcavüzkarlığı dayandırsın!”, “Dinc və günahsız azərbaycanlılara toxunmayın!”, “Ədalətsizliyə son qoyulsun!”, “Torpaqlarımızdan çıxın!”, “Ermənistan beynəlxalq hüquqa riayət etsin!”, “Ermənistan BMT-nin qətnamələrinə əməl etsin!”, “Qarabağ bizimdir, bizim olacaq!”, “Ermənistan, qeyri-konstruktiv mövqeyindən əl çək!”, “Azərbaycana qarşı təxribatların qarşısı alınsın!”, “Ermənistan işğal edilmiş Azərbaycan torpaqlarından çıxsın!”, “Zorakılığa son!”, “Dünya birliyi Ermənistanın təcavüzkarlığını qınamalıdır!”

Bu şüarlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribata etiraz olaraq Niderland Krallığının parlamenti qarşısında keçirilən aksiyada səsləndirilib.

Etiraz aksiyasında Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının, Azərbaycan və Türkiyə icmalarının üzvləri, onların niderlandlı dostları, tələbələrimiz iştirak ediblər.

Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Mayisə Ağamirzəyeva, “Odlar Yurdu” Niderland Azərbaycan Birliyinin sədri Firəngiz Bağırova, Benilüks Azərbaycanlıları Konqresinin (BAK) sədri Elsevər Məmmədov, Hollanda Azərbaycan-Türk Kültür Dərnəyinin rəhbəri İlhan Aşkın, BAK İdarə Heyətinin üzvü Lamiyə Babayeva, Hollandiyada təhsil alan tələbə Ayxan Hüseynov nümayişdə çıxış edərək, Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatdan, hərbi təcavüzdən danışıblar. Onlar təcavüzkarı dayandırmaqla bağlı çağırışlar ediblər.

Aksiya iştirakçıları Niderland parlamentinə bəyanat ünvanlayıb və erməni təcavüzünün qarşısının alınması məqsədilə petisiya irəli sürüblər.

Niderland parlamentinə ünvanlanan bəyanatda Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təcavüz pislənilib. Qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini məqsədyönlü şəkildə hədəfə alması nəticəsində 76 yaşlı əlil dinc sakin həlak olub. Azərbaycan Ordusunun 11 hərbçisi, o cümlədən general, polkovnik və mayorlar Azərbaycan torpaqlarını və əhalisini təcavüzkar Ermənistanın hücumlarından müdafiə edərkən şəhid olublar. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayon 30 ildir ki, erməni silahlı qüvvələrinin işğalı altındadır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün doğma yurdundan didərgin salınıb.

Vurğulanıb ki, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal altındakı torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin dörd qətnaməsini (822, 853, 874 və 884) Ermənistan kobud şəkildə pozur.

Qarşıdurmanın nəticələrini aradan qaldırmaq və işğalçı qüvvələri Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərindən çıxarmaq əvəzinə Ermənistan iyulun 12-də Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təcavüz törədərək, yeni mövqelər ələ keçirmək və bölgədəki gərginliyi artırmaq məqsədini güdür. Ermənistan silahlı qüvvələrinin təxribat aktı, eləcə də bu ölkənin rəhbərliyinin son hərəkətləri və açıqlamaları bölgədəki gərginliyin artmasına xidmət edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlara maneçilik törədir.

Bəyanatda beynəlxalq ictimaiyyət Azərbaycanın mülki əhalisinin erməni hərbçiləri tərəfindən hədəfə alınmasına qarşı qəti mövqe bildirməyə və Ermənistanın qanunsuz hərəkətlərini pisləməyə çağırılıb. Vurğulanıb ki, Ermənistanın bu təcavüzü Niderland da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən sərt şəkildə pislənilməlidir. Ermənistanın cəzasız qalması İrəvanı yeni hərbi təcavüzlərə və təxribatlara sövq edir. “Avropa İttifaqını, Niderlandı Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanın qanunsuz fəaliyyətinə reaksiya verməyə və onu qınamağa çağırırıq”, - deyə aksiya iştirakçıları Niderland parlamentarilərinə müraciət ediblər.

***

Ukraynanın paytaxtı Kiyev şəhərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə, Tovuz istiqamətində törətdiyi təxribatları pisləyən aksiya keçirilib.

Ukrayna vətəndaşları Azərbaycanın bu ölkədəki səfirliyinin qarşısına gələrək Azərbaycana dəstək aksiyası keçiriblər.

Aksiyada son günlər Ermənistanın Azərbaycana qarşı törətdiyi hücumlar və təxribatlar pislənilib.

“Qarabağ Azərbaycandır!”, “Düşmənə ölüm!” kimi şüarlar səsləndirən aksiyaçılar Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini bildiriblər. Onlar Ermənistanı təcavüzə və təxribatçı əməllərə son qoymağa çağırıblar.

***

Moldovada yaşayan azərbaycanlılar ölkəmizin Kişineudakı səfirliyinə gələrək, Azərbaycan Ordusuna və Prezidentinə dəstəklərini ifadə ediblər.

Bu barədə Azərbaycanın Moldovadakı səfirliyindən məlumat verilib.

Azərbaycanlılar səfirliyə gələrək, Azərbaycan Ordusunun və Prezidentinin yanında olduqlarını bildiriblər. Soydaşlarımız Ermənistanın Tovuz rayonu istiqamətində törətdikləri təxribatlardan hiddətləndiklərini, Ordumuza və Prezidentimizə dəstək məqsədilə könüllü şəkildə Azərbaycan Silahlı Qüvvələri tərkibində erməni işğalçılarına qarşı döyüşməyə hazır olduqlarını bəyan ediblər. Onlar rəsmi qaydada könüllü olaraq orduya getmək üçün müraciətlər ediblər, səfirliyin bunu rəsmiləşdirməsini istəyiblər, lazım olan anda Vətənə yola düşməyə hazır olduqlarını bildiriblər. Səfirlik həmin şəxslərin müraciətlərini qəbul edib və müvafiq dövlət qurumlarına təqdim edəcək.

Məlumatda deyilir ki, Moldovada yaşayan soydaşlarımız ermənilərin vəhşi hərəkətlərini, atəşkəs rejimini pozaraq, Azərbaycan Ordusunun hərbçilərinin mövqelərinə hücum etmələri və dinc əhaliyə atəş açmaları ilə bağlı məlumatları dünyaya çatdırmaq üçün əllərindən gələni edirlər.

**AZƏRTAC**

## Gənclər fərarilik edir, Paşinyanın ümidi qocalaradır

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun “Ohanyan xətti”ni cəmi 40 dəqiqəyə darmadağın etməsindən sonra çağırışçı əsgərlərin duruş gətirə bilmədiyini görən sabiq prezident Serj Sarkisyan hakimiyyəti “Yerkrapa”dan olan veteranları səfərbər etmişdi. Gənc əsgərlər, xüsusilə də Ermənistandan olan hərbçilər işğal altında saxladıqları Azərbaycan torpaqlarından qaçdıqdan sonra yaşlı muzdlular hərbi silah-sursatla təmin olunaraq orduya göndərilmişdi. Orduya cəlb edilən mülki şəxslərin əksəriyyətinin yaşı 60-ı ötmüş, spirtli içki aludəçisi olan, vecsiz həyat tərzi sürən, ayaq üstə güclə dayanan ahıllar idi. Belə görünür ki, Tonoyan və Paşinyan da sələfi kimi indiki vəziyyətdə birinci Qarabağ müharibəsinin qoca veteranlarının döyüşə cəlb edilməsinin alternativini görmür.

Qeyd edək ki, Ermənistan hökuməti Azərbaycanla sərhəddə baş verən hadisələrin işıqlandırılmasına ciddi senzura tətbiq edib. Dünya mətbuatı Ermənistan silahlı qüvvələrinin həmin döyüşlərdə 100-ə qədər canlı qüvvə (ölü və yaralı olmaqla) itirdiyini xəbər verib. Lakin Ermənistan Müdafiə Nazirliyi bu günə qədər cəmi 8 hərbçisinin həlak olduğunu təsdiq edir. Son hadisələrə dair bütün informasiyalar baş nazir Paşinyanın aparatında senzuradan keçir. Yəni onun və köməkçilərinin icazəsi olmadan, Müdafiə Nazirliyinin senzurasından keçmədən KİV baş vermiş hadisələr, şəxsi heyət arasına itkilər barədə heç bir informasiya dərc edə bilmir.

Döyüş itkilərindən əlavə, Ermənistan ordusunda baş verən fərarilik, ölüm, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədən kənar halların sayı dəfələrlə artıb. Əvvəlki kimi, erməni ordusu daxildə çox ciddi qütbləşməyə məruzdur, regionçuluq məsələsi bu silahlı qüvvələrin durumunu daha da pisləşdirir. Komandirlər tərəfindən hərbi hissələrdən hərbi qulluqçuların qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində kənara buraxma halları hələ də davam etməkdədir. Orduda kriminogen vəziyyətlə yanaşı, komandir və rəislər hərbi xidmətə çağırılan hərbi qulluqçuların sağlamlığına yenə də son dərəcə biganə yanaşırlar.

Ermənistan mediası isə xidmət zamanı intihar edən, qaçan hərbçilərin ailələrinə təzyiq olunduğunu bildirir. Ölənlərə aid qeydiyyat kitabçaları, şəxsi gündəliklərin yoxa çıxması da adi hala çevrilib. Hesab edilir ki, hakimiyyəti bu addımı atmağa Ermənistan ordusu haqqında bir çox həqiqətlərin üzə çıxa bilmək xofu vadar edir. Rəhbərlik orduya korrupsiya mənbəyi kimi baxdığından hərbi qulluqçuların nizam-intizamı, mənəvi-psixoloji, maddi və fiziki vəziyyəti ötən illərə nisbətən daha da pisləşir.

Bütün bunların fonunda Azərbaycan əsgərinin yüksək mənəvi hazırlığı, döyüş ruhu, zəbt olunmuş ərazilərdən düşməni hər an qovmaq üçün qisas hissi ilə alışıb yanması işğalçı Ermənistanı qorxuya salıb. Artıq ermənilər yaxşı bilirlər ki, bu gün Ermənistan ilə Azərbaycan arasında həm hərbi, həm iqtisadi, həm bütün başqa sahələrdə fərq çox böyükdür. Azərbaycanın Silahlı Qüvvələri durmadan inkişaf etdiyi halda Ermənistanda bunun tam əksi müşahidə olunur. Məsələn, Ermənistanda demoqrafik vəziyyətin pisləşməsi ordunun şəxsi heyətlə təminatı baxımından artıq ciddi problemə çevrilib.

Vəziyyətin getdikcə acınacaqlı xarakter aldığını etiraf edən ekspertlər bildirib ki, təcili olaraq orduya çağırış üçün müəyyən olunan yaş həddi maksimum qaldırılmalıdır, hərbi xidmətdən yayınanların sayı azaldılmalıdır. İndiki vəziyyət isə bu il də daxil olmaqla ən azı 2026-cı ilə qədər orduda çağırışçılarla bağlı ciddi problemlərin yaşanacağını göstərir. Çağırışçıların sayının azlığı ordunun şəxsi heyətlə təminatında böyük çətinliklər yaradacaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

Biz birlikdə güclüyük!

# COVID-19 iqtisadi inkişafı ləngitsə də, vəziyyət kritik deyil

## Prezident İlham ƏLİYEV: "Əminəm ki, dünya iqtisadiyyatı pandemiyadan çıxmağa başlayan kimi, bizdə də bu sahədə vəziyyət bərpa olunacaq"

*Əvvəli 1-ci səh.*

Üstündən aşağı-yuxarı yarım il keçməsinə baxmayaraq, hələ də dərdinə əlac tapılmamış bu virus dünyanın "mənəm" deyən ölkələrinin iqtisadiyyatlarını çökdürüb, sosial siyasətlərini çətin sınağa çəkib. İndi bütün dövlətlər çıxılmaz vəziyyətə düşüblər - bilmirlər iqtisadiyyatlarını xilas etmək üçün sərt karantin və ya fövqəladə vəziyyətin qadağalarını yumşaldıb müəssisə və təşkilatların tam gücləri ilə fəaliyyət göstərmələrinə icazə versinlər, sərhədləri açsınlar, yoxsa, ÜST-ün "ikinci dalğa" proqnozuna inanıb daha ağır vəziyyəti gözlərinin altına alaraq tədbirlər görsünlər. Bu az qala "olum, ya ölüm" dilemması kimi mürəkkəb vəziyyəti çıxılmaz edən isə odur ki, hər iki halda əziyyət çəkən, çətinliyə düşən əhalidir. Birincidə işindən, yəni qazancından, dolanışığından, ikincidə isə sağlamlığından, bəzi hallarda hətta həyatlarından olduqları üçün.

Bax, belə bir şəraitdə çox az ölkə var ki, bu labirintdən yol tapıb həm iqtisadiyyatını, həm də xalqını xilas edə bilir. Və o ölkələrdən biri də Azərbaycandır.

Biz heç də ölkəmizə, onun iqtisadiyyatına pandemiyanın təsir göstərmədiyini iddia etmirik. Ola bilməz ki, qloballaşan dünya iqtisadiyyatının tərkib hissəsi hesab edilən Azərbaycan iqtisadiyyatı təxminən 5 aylıq sərt karantin tədbirlərinin fəsadlarını yaşamasın. Nazirlər Kabinetinin iyulun 15-də cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında geniş nitq söyləyən Prezident İlham Əliyev bu barədə demişdir: "...mənim təxmin etdiyim kimi, birinci, altıncı aylardan sonra iqtisadiyyat bir qədər tənəzzülə uğradı. Ölkədə dörd ay ərzində iqtisadi artım müşahidə olunurdu. Ancaq may-iyun aylarında tənəzzül olub və ümumi daxili məhsul istehsalı bu ilin 6 ayında 2,7 faiz azalıbdır. Bunun da səbəbləri bəllidir. Təkcə onu demək kifayətdir ki, bizim turizm sektorumuz 48 faiz, tikinti sektoru isə 14 faiz tənəzzülə uğrayıb".

Cari ilin 6 ayı üzrə ölkənin makroiqtisadi göstəriciləri ilə bağlı dövlət başçısının dediklərinə onu da əlavə edək ki, hesabat dövründə Azərbaycanda 33 milyard 803,9 milyon manatlıq ÜDM istehsal olunmuşdur. 6 ayda adambaşına 3 min 393,7 manatlıq (3,4 faiz az) əlavə dəyər düşmüşdür. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında ölkə üzrə 18 milyard 401,9 milyon manatlıq (1,5 faiz az) sənaye məhsulları istehsal edilmişdir ki, onun da 5 milyard 722,5 milyon manatlığı qeyri-neft sənaye məhsulları olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu dövrdə qeyri-neft sənaye məhsullarının istehsalında 11,2 faiz artım qeydə alınmışdır.

Xarici ticarət əlaqələrinə gəldikdə, bu sahədə də rəqəmlər pandemiyadan öncəki göstəricilərdən aşağıdır. Bununsa əsas obyektiv səbəbi birbaşa COVID-19-la bağlı tələbatın azalması üzündən neftin qiymətinin kəskin ucuzlaşmasıdır. Məhz bu ucuzlaşma səbəbindən ilin əvvəlindən ötən 6 ay ərzində ölkəmizin xarici ticarət dövriyyəsində ixracın payı ötən ilin eyni dövrünə nisbətən 23 faiz azalaraq 7,7 milyard dollarlıq olmuşdur. Azalma idxalda da müşahidə edilmişdir. Yəni bu dövrdə Azərbaycan 5 milyard dollarlıq mal və məhsullar idxal etmişdir ki, bu da keçən ilin eyni dövrünə nisbətən 29 faiz azdır. Əvəzində göründüyü kimi, hesabat dövründə ölkənin xarici ticarət dövriyyəsində 2,7 milyard dollarlıq müsbət saldo yaranmışdır.

Amma xarici ticarətdə müsbət olan təkcə bu deyil. İlkin məlumatlara görə, yanvar-iyun aylarında ölkə üzrə meyvə-tərəvəz ixracı 3, çay ixracı 5,9, bitki və heyvan mənşəli piy və yağlar ixracı 41 faiz artmışdır. Xarici ticarətdən söz düşmüşkən Nazirlər Kabinetinin iclasında da səslənmiş bir fakta nəzər salaq: cari ilin 6 ayında və 2015-ci ildə eyni həcm idxala görə gömrük daxilolmaları 3 dəfə artmışdır. Bu isə təbii ki, aşkarlıq və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi hesabına mümkün olmuşdur. Prezident İlham Əliyev də sözügedən iclasda bu fakta diqqət çəkmişdir: "Hesab edirəm ki, ictimaiyyətin də diqqətini buna cəlb etməliyik. 2015-ci ildə və bu ilin 6 ayında idxalın həcmi eyni idi. Ancaq 2015-ci ildə gömrük orqanları 700 milyon manat vəsait toplamışlar, bu il 2 milyard manatdan çox. Yəni təxminən 3 dəfə çox. Nəyin hesabına? Şəffaflığın hesabına, qaçaqmalçılığa qarşı mübarizə hesabına, düzgün yanaşma nəticəsində. Əgər bu sahədə və vergilər sahəsində ciddi islahatlar aparılmasaydı, biz bu vəsaitdən məhrum olacaqdıq".

Pandemiya dövründə Azərbaycan iqtisadiyyatında nikbinliyə əsas verən digər göstəricilər də var. Götürək kredit qoyuluşunu. Dövlət Statistika Komitəsinin açıqladığı məlumata əsasən, cari ilin 6 ayı ərzində ölkə üzrə kredit qoyuluşunun həcmi keçən ilin eyni dövrünə nisbətən 11,9 faiz çox - 14 milyard 765,7 milyon manat olmuşdur. Vaxtı keçmiş kreditlərin həcmi isə 27,4 faiz azalaraq 1 milyard 84,4 milyon manata enmişdir.

Bu yerdə pandemiya səbəbindən əksər ölkələrin kredit sarıdan problemlə qarşılaşdığı bir zamanda nüfuzlu beynəlxalq maliyyə qurumlarının Azərbaycanla əməkdaşlıqlarını genişləndirməyə maraq göstərmələrini qeyd etmək istərdik. Ekspertlər deyirlər ki, Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Ümumdünya Turizm Təşkilatı, Microsoft, CISCO, Signify kimi beynəlxalq qurumlar və şirkətlərin rəhbərlərinin Prezident İlham Əliyevlə görüşə təşəbbüs göstərmələri həm də Azərbaycanın etibarlı tərəfdaş olduğunu təsdiqləyir. Etiraf edək ki, belə mürəkkəb dövrdə bu cür imicin daşıyıcısı olmaq hər ölkənin qismətinə düşmür. Hər ölkənin qismətinə düşməyən, habelə bu cür çətin zamanda beynəlxalq reytinq cədvəllərində fərqlənməkdir. Təkcə cari ilin ilk yarısında ölkəmiz İrs Fondunun "İqtisadi Azadlıq İndeksi-2020", Beynəlxalq Şəffaflıq Təşkilatının "Korrupsiya Qavrayış İndeksi-2019", Davos İqtisadi Forumunun "Enerji Keçidi İndeksi", İqtisadiyyat və Sülh İnstitutunun "Qlobal Sülh İndeksi", BMT-nin Elektron Hökumət Sorğusu, "Davamlı İnkişaf hesabatı-2020" və BMT Turizm Təşkilatının "Dünya Turizm Barametri" kimi hesabatlarda mövqelərini yaxşılaşdırmışdır.

Pandemiya bir daha neft-qaz ölkəsində qeyri-neft sektorunun inkişafının vacibliyini ortaya qoydu. "Bir daha" deyirik ona görə ki, dünyada mahiyyətindən asılı olmayaraq baş verən hadisələrə neft sektoru qədər həssas ikinci bir sahə yoxdur. Harada bir münaqişə varsa, hansısa bir regionda mübahisə yaranırsa, qış həddindən artıq soyuq, yay qızmar keçirsə, kiminsə ehtiyatı artır, ya azalırsa və nəhayət, COVID-19-un göstərdiyi kimi, dünyada epidemiya və ya pandemiya elan olunursa, neft, daha doğrusu, onun qiyməti anında "reaksiya" verir - ya bahalaşır, ya da ucuzlaşır. Bu səbəbdən neftə arxayın olub yola çıxmaq təhlükəlidir, hətta "qara qızıl" adlandırılsa da.

Desək ki, Azərbaycanın bu sarıdan problemi yoxdur, səmimi olmarıq. Qədimdən neft diyarı olmağımız səbəbindən tarixən bu sahənin inkişafı, eləcə də günü bugünəcən tükənməyən karbohidrogen ehtiyatlarımız bizi istər-istəməz neft-qaz ölkəsi etmişdir. Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi fikir verməsi yox, eyni zamanda, bu istiqamətdə konkret tədbirlər görməsi təbiidir.

Belə xüsusi yanaşmanın nəticəsinə əmin olmaq üçün qeyri-neft sektorunun ən böyük və ən vacib sahəsi hesab edilən kənd təsərrüfatında son 6 ay üzrə göstəricilərə nəzər salaq. Dövlət Statistika Komitəsinin açıqlamasına görə, yanvar-iyun aylarında ölkəmizdə 4 milyard 82,2 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkindən 2,2 faiz çoxdur. Hesabat dövründə Azərbaycanda 1,9 milyard manatlıqdan artıq (1,1 faiz çox) bitkiçilik, 2,08 milyard manatlıqdan artıq (3,2 faiz çox) heyvandarlıq məhsulları istehsal edilmişdir. Onu da qeyd edək ki, pandemiya dövründə bu artımlar əsasən məhsuldarlıq hesabına əldə olunmuşdur. Məhsuldarlığa isə təsir edən amillərdən biri suya olan tələbatın ödənilməsidir.

Lakin son vaxtlar, xüsusən bu il bütün dünyada, o cümlədən Azərbaycanda quraqlıq problemi var. Bu üzdən hökumətin son iclasında Prezident İlham Əliyevin həmin problemə, daha doğrusu, onun həllinə xüsusi diqqət ayırması təsadüfi deyil: "Bilirsiniz ki, keçən ilin quraqlığı bizə böyük ziyan vurdu. Bu il də baxmayaraq ki, kənd təsərrüfatı 6 ayda 2,2 faiz artıb, amma daha çox arta bilərdi. Çünki bu quraqlıq nəticəsində suyun az olması səbəbindən biz istədiyimiz qədər torpaqlardan istifadə edə bilməmişik", - deyən dövlət başçısı Azərbaycanda hələ su təhlükəsizliyi məsələsinin həll edilmədiyini diqqətə çatdırmışdır.

Bütövlükdə, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı nitqindən, eləcə də hökumətin iqtisadi qurumlarının rəhbərlərinin çıxışlarından çıxan nəticə deməyə əsas verir ki, pandemiya ölkə iqtisadiyyatının inkişafını ləngitsə də, vəziyyət kritik deyil. Prezident İlham Əliyevin dediyi kimi: "Bu, müvəqqəti bir məsələdir. Əminəm ki, dünya iqtisadiyyatı pandemiyadan çıxmağa başlayan kimi bizdə də bu sahədə vəziyyət bərpa olunacaq".

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Azərbaycanda pandemiya ilə bağlı vəziyyət nəzarətdədir

*Əvvəli 1-ci səh.*

Əvvəllər koronavirusun gənclərə "yaxın durmadığı" deyilirdi. Ancaq son ayların real mənzərəsi bunun əksini göstərir. Hətta yeni bir araşdırma zamanı gənclərin koronavirusa daha həssas olduqları üzə çıxıb.

ABŞ-ın Kaliforniya Universitetinin tədqiqatçıları 18-25 yaş arası 8400 gəncin məlumatlarını araşdıraraq COVID-19 virusunun oğlanların 33, qızların 30 faizində ağır fəsadlara səbəb ola biləcəyi qənaətinə gəliblər. Bu cür fəsadların ehtimalı daha çox kənar amillərdən, xüsusilə tütün istifadəsindən asılıdır. Bu ilin 11-18 aprel tarixlərində hər 100 min əhalidən COVID-19 virusu ilə xəstəxanaya yerləşdirilən 18-29 yaşlı şəxslər orta hesabla 8,7, 65 yaşdan yuxarı şəxslər isə 128,3 nəfər idisə, 21-22 iyun tarixlərində həmin göstəricilər müvafiq olaraq 34,7 və 306,7 nəfər olub. Bu da koronavirusla xəstəxanaya yerləşdirilən gənclərin 200 faizdən artıq çoxalması deməkdir. Koronavirusun gənclər üçün təhlükəsini artıran amillər sırasında ürək xəstəlikləri, şəkərli diabet, astma, daxili immun pozuntuları, qaraciyər pozuntuları, habelə piylənmə və tütünə aludəlik göstərilir.

Britaniya alimləri isə artıq çəkinin koronavirusun ağır formada inkişafı riski ilə əlaqəli ola biləcəyi nəticəsinə gəliblər. Alimlər 400 mindən çox britaniyalının sağlamlıq vəziyyəti haqqında məlumatları təhlil edərək müəyyənləşdiriblər ki, piylənmədən əziyyət çəkən insanların 49 faizdən çoxunda koronavirus xəstəliyinin ağır formasının inkişafı riski mövcuddur.

Çin tədqiqatçıları da müəyyənləşdiriblər ki, COVID-19 infeksiyasından ölüm faizini yüksəldən amillərdən biri qanda şəkərin həddən artıq yüksək olması - hiperqlikemiyadır.

Əvvəlki və yeni araşdırmalar onu göstərir ki, koronavirus hələ də qlobal təhlükə olaraq qalır və bəşəriyyəti, insanların sağlamlığını təhdid edir. Hazırda dünyanın koronavirusla ən uğurlu mübarizə üsulu insanlar aralarında təması azaldaraq yoluxma zəncirini qırmaqdır. Ona görə də bəzi ölkələr ilkin mərhələdə sərt karantin rejimi sayəsində virusa yoluxmada nail olunan müsbət dinamikanı yenidən əldə etməyə çalışırlar. Bunu isə yumşaldılmanı sərt karantin rejimi ilə əvəzləyərək edirlər.

Azərbaycan da bu yolu seçən ölkələrdəndir. Dünyada olduğu kimi, vətənimizdə də infeksiyaya yoluxma sayını azaltmaq və kütləvi yoluxmanın qarşısını almaq üçün karantin rejimi uzadılıb. Eyni zamanda yeni koronavirusun daha çox yayıldığı şəhər və rayonlarda sərt karantin rejimi elan olunub. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərləri və Abşeron, Bərdə, Samux, Siyəzən, Şəki, Xaçmaz, Goranboy və Göygöl rayonlarında xüsusi karantin rejimi iyulun 20-dək uzadılıb. Bununla əlaqədar Bakı metrosunun fəaliyyəti də dayandırılıb. Qərara əsasən, xüsusi karantin rejiminin uzadılması ilə əlaqədar ictimai nəqliyyatın fəaliyyətinə də məhdudiyyət tətbiq edilib. Yuxarıda sadalanan şəhər və rayonların ərazisində həftəsonları bütün ictimai nəqliyyatın fəaliyyəti qadağan edilib.

Ölkəmizdə hələ yanvar ayından başlayaraq pandemiyaya qarşı çevik və zəruri addımlar atılır, epidemioloji vəziyyətə uyğun olaraq lazımi tədbirlər görülür. Birbaşa ölkə rəhbəri İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən effektli tədbirlər sayəsində ölkədə infeksiya ilə bağlı vəziyyət daim nəzarətdə saxlanılır.

COVID-19-a yoluxan xəstələrin müalicəsi istiqamətində də zəruri addımlar atılır. Xəstəxanada və ya evdə olmasından asılı olmayaraq, koronavirus infeksiyasına yoluxmuş bütün şəxslərin müalicəsi dövlət hesabına həyata keçirilir. Bunun üçün ölkədə kifayət qədər dərman ehtiyatı da var. Hazırda Azərbaycanda bu virusa yoluxan ağır xəstələrə konvalesent plazma müalicəsi tətbiq olunur və bunun müsbət nəticələri var. ATU-nun Tədris Terapevtik Klinikasında oksigen generatorunun quraşdırılması başa çatıb və işə salınaraq klinikada yerləşən xəstələri keyfiyyətli və fasiləsiz oksigenlə təmin etməyə başlayıb.

İnfeksiyanın geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq iyulun 8-də yeni növ koronavirusla mübarizə sahəsində çalışan Rusiya və Türkiyənin bir qrup mütəxəssisi Azərbaycana gəlib. İyulun 13-də ölkəmizə gəlmiş 115 kubalı tibb mütəxəssisi də 3 ay müddətində Azərbaycanda olacaq.

Yaxın vaxtlarda isə Rusiyanın Federal Tibbi-Bioloji Agentliyi (FTBA) COVID-19 ilə mübarizədə həkimlərimizlə birlikdə "qırmızı zona"da işləyəcək mütəxəssislərin ikinci qrupunu Azərbaycana göndərəcək. Bundan əvvəl Rusiya FTBA-nın baş infeksionisti Vladimir Nikiforov və baş pulmonoloqu Aleksandr Averyanov Bakıda və regionlarda koronaviruslu xəstələri qəbul etmək üçün profilləndirilmiş bir sıra xəstəxanalara baş çəkiblər. Agentliyin mütəxəssisləri Azərbaycanın tibb müəssisələrinin işini yüksək qiymətləndirib, kadrların səviyyəli olduğunu, tibb müəssisələrinin lazımi müasir avadanlıqlarla təchiz edildiyini vurğulayıblar.

"Koronavirus xəstələrinin idarə edilməsində Rusiyanın təcrübəsi bir qədər çoxdur, çünki pandemiya Rusiyada daha əvvəl başlayıb. Hazırda bu xəstəliyə qarşı mübarizəni ən təsirli şəkildə təşkil etməyə imkan verən bir sıra tədbirlər hazırlanıb və bunları azərbaycanlı həkimlərlə bölüşdük. COVID-19 xəstələrin müalicəsində prinsipial fikir ayrılıqlarımız yox idi. Sadəcə dərman preparatlarının yazılması məsələsində xırda düzəlişlər etdik", - Rusiya FTBA-nın baş infeksionisti Vladimir Nikiforov deyib.

Rusiyalı tibb işçiləri azərbaycanlı mütəxəssislərin istifadə etdiyi bəzi metodikalarla da yaxından maraqlanıblar.

Hazırda gündəlik yoluxma sayında müəyyən qədər sabitləşmə təmin edilsə də, hələlik epidemioloji vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Ona görə də COVID-19-la ölkəmizdə aylardır aparılan mübarizənin tam təsirli olması, karantin rejiminin sona çatması və sağlamlığımıza heç bir təhlükə olmayan normal həyata dönmək üçün hər birimiz qoyulan qaydalara ciddi riayət etməliyik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Pandemiya ilə mübarizə üçün Koreya ölkəmizə 350 min qoruyucu maska göndərib

İyulun 17-də Koreya hökuməti tərəfindən koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycana göndərilən ümumi dəyəri 300 min ABŞ dolları təşkil edən 350 min ədəd qoruyucu KF94 maskası Bakıya çatdırılıb.

AZƏRTAC xəbər verir ki, humanitar yardımın hava limanında qəbulu mərasimində Koreyanın ölkəmizdəki səfirliyinin müşaviri Lim Jean Hyuk və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Qulu iştirak ediblər.

Koreya dünyada koronavirusla uğurla mübarizə aparan ölkələrdən sayılır. Bu ilin fevralında COVID-19 infeksiyasının yayılmağa başladığı dövrdə ölkədə xəstələrin sayı sürətlə artırdı. Buna baxmayaraq dövlət və xalqın həmrəyliyi, eləcə də tibbi heyət üzvlərinin, xüsusilə həkimlərin fədakar səyləri nəticəsində Koreya pandemiyaya qalib gəlib və yüksək yoluxma faizinin qarşısı alınıb.

Bununla yanaşı, Koreya koronavirus pandemiyası zamanı istifadə edilmiş test kitləri, maska, tibbi ləvazimatların keyfiyyətinə görə dünya ölkələri tərəfindən yüksək qiymətləndirilib və bir çox ölkələr tərəfindən həmin məhsulların ixracı ilə əlaqədar çoxlu təkliflər alıb. Eləcə də Koreyanın yüksək ixtisaslı tibb heyəti də müalicə texnikası və təcrübə mübadiləsi üçün müxtəlif ölkələrdən çoxlu müraciət alıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Qulu AZƏRTAC-ın müxbirinə deyib: "COVID-19 pandemiyası ilə qlobal səviyyədə mübarizə aparıldığı bir dövrdə Azərbaycan və Koreya xalqları həmrəylik nümayiş etdirirlər. Göndərilən tibbi maskaların filtrasiya effektivliyi 94 faizdir və onun COVID-19-la mübarizə aparan tibb müəssisələrinə paylanılması nəzərdə tutulub. Onu da deyim ki, Koreyanın tibb mütəxəssisləri ölkənin COVID-19-la mübarizə strategiyasının müxtəlif istiqamətlərinin müzakirəsinə həsr olunan 9 veb-seminar təşkil edib. Həmin seminarlarda ölkəmizin epidemioloq, infeksionist və virusoloqları iştirak ediblər. Bu sahədə Koreyanın tibb mütəxəssisləri ilə geniş əməkdaşlıq planları var".

Koreyanın ölkəmizdəki səfiri Kim Tonq Op ölkəmizdə pandemiyaya qarşı aparılan mübarizə tədbirlərini dəstəkləyərək bu mübarizədə birgə əməkdaşlığın iki ölkə xalqının dostluq münasibətlərinin ifadəsi kimi dəyərləndirib.

Qeyd edək ki, Koreya Azərbaycana maska dəstəyi ilə yanaşı, bu ilin aprel ayında Bakı şəhərində məskunlaşmış bir qisim məcburi köçkünə - yaşı 65-dən yuxarı olan ahıl, tənha şəxslər və şəhid ailələrinə müxtəlif ərzaq və tibbi yardım göstərib. Eləcə də Koreya hökuməti tərəfindən Azərbaycana xəstəxana həyətlərində testlərin həyata keçirilməsi üçün quraşdırılan kiçik "Walkthrough" köşklərinin quraşdırılmasında dəstək verəcəyi də planlaşdırılır.

◆ Milli maraqlar naminə əməkdaşlıq

# Böyük Azərbaycan Partiyası ölkədə aparılan islahatları dəstəkləyir

*Əvvəli 1-ci səh.*



İkinci şərt hakimiyyətlə siyasi partiyalar arasında təmasın və qarşılıqlı etimadın yaradılması, müzakirələrin təşkil edilməsi, fərqli düşüncələrin və fərqli fikirlərin aşkar surətdə eşidilməsi, nəticədə ölkəmizdə siyasi qüvvələrarası münasibətlərin barış əsasında qurulmasıdır: "Prezident İlham Əliyev ölkədə siyasi islahatların dərinləşəcəyini, rüşvətə və korrupsiyaya qarşı ciddi mübarizə aparılacağını, eyni zamanda, neqativ hallar barədə müxalifətin də səsləndirdiyi faktlarla bağlı ölçü götürüləcəyini bəyan etdi.

Sonra hakimiyyətin yuxarı dairələrində bir sıra ciddi kadr dəyişikliyi həyata keçirildi, bir sıra korrupsiyaya qurşanmış vəzifəli şəxslər həbs edildilər.

Cəmiyyətdə çox maraqla izlənilən məqamlardan biri də Prezidentin təmsilçisi kimi Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsinin müdiri Ədalət Vəliyevin ölkənin əksər siyasi təşkilat rəhbərləri ilə görüşməsi və bu görüşdə siyasi təşkilat rəhbərlərinin düşüncələrinin, təkliflərinin dinlənməsi və ölkə rəhbərinə çatdırması oldu. Fikrimcə, bu cür görüşlərin əhəmiyyəti ondadır ki, həm iqtidarla müxalifət arasında münasibətləri yumşaldır, təkmilləşdirir, həm də münasibətləri radikal müstəvidən dinc masa müstəvisinə keçirir.

Böyük Azərbaycan Partiyası ölkəmiz üçün ən uğurlu yolun ciddi, fundamental islahatlardan ibarət olduğunu bildirir. Hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyinin, hakimiyyət bölgüsünün, hakimiyyətin hər üç qolunun səmərəli işləməsinin, demokratik seçkilərin, mətbuat azadlığının təmin olunmasının ölkəmiz üçün prioritet olduğunu bəyan edir. Biz ayrı-ayrı məsələlərlə bağlı proqram və təkliflərimizi mütəmadi mətbuat vasitəsilə açıqlayırıq. Prezident Administrasiyasına da müxtəlif məsələlərlə bağlı təkliflərimizi təqdim etmişik", - deyə BAP sədri bildirdi.

Partiya sədri onu da əlavə etdi ki, iqtidarla müxalifət arasında indiyədək olan münasibətlər ürəkaçan olmayıb: "Bundan da daim Azərbaycanı istəməyən qüvvələr istifadə etməyə calışıblar və yenə də çalışırlar. Biz ölkədə gərginlik yaradan bütün ocaqları söndürməyə çalışmalıyıq. Bunun üçün mütləq təmaslar davam etdirilməli, ölkədə normal iqtidar-müxalifət dialoqu olmalı və məsələlər küçələrdə deyil, dinc məcrada həll olunmalıdır".

Elşad Musayev onu da bildirdi ki, bir neçə gün əvvəl Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə növbəti dəfə görüşüb. "Görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, iqtidar-müxalifət münasibətləri, pandemiya və bölgələrdə su qıtlığı ilə bağlı yaranan çətinliklər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ətrafında gedən proseslər müzakirə edilib, bütün bu məsələlərdə iqtidarla müxalifətin vahid mövqedən çıxış etməsinin səmərəliliyi qeyd olundu. Həmçinin siyasi təşkilatların vəziyyəti, onların ofis və qurultaylarının keçirilməsi ilə bağlı problemlərin həlli, medianın, QHT-nin vəziyyəti və inkişaf yolları ilə bağlı fikir mübadiləsi aparıldı. Şöbə müdiri Ədalət Vəliyev siyasi partiya rəhbərləri ilə görüşlərin ikinci mərhələsinə başladıqlarını və bunu davam etdirəcəkərini, hər hansı təklifdə bulunan siyasi təşkilat rəhbərini dinləməyə hazır olduqlarını, siyasi partiyalara yerlə və qurultayla bağlı problemlərdə yardımçı olacaqlarını bildirdi", - deyə BAP sədri qeyd etdi.

### "Milli şura" qaragüruh səviyyəsini ortaya qoydu

Elşad Musayev qeyd etdi ki, Böyük Azərbaycan Partiyası hakimiyyətə müxalifətdə olan partiyadır, lakin dövlətçiliyin qorunmasını əsas vəzifə hesab edir və iqtidara münasibətdə konstruktiv mövqedədir: "Əvvəlcədən də bəyan etdiyimiz kimi, iqtidarın atdığı hər hansı pozitiv addımı müsbət qiymətləndirir, çatışmazlıqları tənqid edir və çıxış yolu göstərməyə çalışırıq. Pandemiya ilə bağlı indiki həssas dönəmdə hesab edirik ki, müxalifətçiliyi bir qədər kənara atıb hamımız ölkəmizi bu bəladan çıxarmaq üçün birgə fəaliyyət göstərməliyik".

BAP sədri ilə yeniləşən siyasi sistemdə müxalifətin rolu barədə də söhbətləşdik. Həmsöhbətim qeyd etdi ki, müasir dünyada siyasi partiyalar siyasi institutların əsas tərkib hissələrindən olmaqla, həm də vacib komponentlərindən biridir: "Bu baxımdan da siyasi partiyaları dərnək səviyyəsində deyil, normal siyasi təşkilat qismində görməliyik. Siyasi təşkilatların zəif olduğu ölkələrdə demokratiya, insan hüquq və azadlıqları, azad media kimi sahələrdə axsamalar olur. Siyasi müxalifət zəif olan ölkələrdə onların yerini radikal, ekstremist müxalif qüvvələr tutmağa çalışırlar. Bəzən də buna nail olurlar. Odur ki, həm dövlət ölkədə normal siyasi müxalifətin olmasında maraqlı olmalı, həm də müxalifət partiyaları öz fəaliyyətlərini təkmilləşdirməlidirlər. Müasir dünya dəyişdiyi kimi, ölkəmiz də, cəmiyyətin özü də, siyasi təşkilatlar da yaxşı mənada dəyişməlidir.

Özünü sağlam siyasi proseslərdən təcrid edən, radikal mövqe sərgiləyən qruplara gəldikdə, Elşad Musayev hamını gözdən salmağa çalışan, qaragüruh mövqeyi sərgiləyən, daha çox kənar qüvvələrin dəstəyinə güvənən və bundan istifadə etməyə çalışan qüvvələrə münasibətinin mənfi olduğunu söylədi: "Bunların içərisində vaxtilə mövcud iqtidardan yararlanmış, bu və ya digər səbəblərdən kənarlaşdırılmış xeyli sayda adam var. "Milli şura"nın yaxınlarda yayımlanan onlayn iclasları ölkəni idarə etməyə iddialı olan bir qurumun qaragüruh səviyyəsini ortaya qoymaqla yalnız onlara deyil, bütövlükdə müxalifətə ağır zərbə vurmuş oldu".

Partiya sədri qlobal problem olan pandemiya ilə bağlı fikirlərini də bölüşdü. "Pandemiya ümumbəşəri problemdir. Həm də hamı üçün yeni problemdir. Ona görə də, hətta dünyanın ən inkişaf etmiş ölkələri belə ilk vaxtlarda çox çətinlik çəkirdilər. Təcrübə göstərir ki, bu problemdən yalnız həm dövlət orqanları, həm də vətəndaşların birgə səyi ilə çıxmaq olar. Biri olub o birisi olmayacaqsa, çətin olacaq. İlk günlərin müxtəlif çətinliklərinə baxmayaraq dövlət səviyyəsində aparılan işlər öz müsbət nəticəsini verdi və ÜST-ün yaydığı məlumatlarda Azərbaycanın vəziyyəti əksər ölkələrlə müqayisədə daha yaxşı idi. Rəqəmlərdən də bu aydın görünürdü.

Təəssüflər olsun ki, son günlər vəziyyət gərginləşməkdə davam edir. Bu səbədən də müvafiq orqanlar sərt tədbirlər görmək məcburiyyətində qalır. Düşünürəm ki, ilk növbədə tibbi maarifləndirmə işini gücləndirməliyik, insanlarımız da koronavirusun qarşısını almaq üçün onlardan tələb olunan elementar qaydaları yerinə yetirməlidir. Dövlət orqanlarının da buraxılan səhvlərdən doğru nəticə çıxaracaqlarına inanıram".

### Siyasi partiya təmsilçiləri təşəbbüskar olmalıdırlar

BAP sədrinin son vaxtlarda daha da güclənən korrupsiyaya qarşı mübarizə tədbirləri ilə bağlı fikirlərini öyrəndik. Onun sözlərinə görə, korrupsiya zəli kimi ölkənin qanını soran, beynəlxalq aləmdə imicinə ağır zərbə vuran, bütün sahələrdə çox ciddi problemlər yaradan, ölkəni inkişafdan salan, vətəndaşa hər addımda bir problem yaradan amildir. Bu bütün dünyada belədir və korrupsiyadan xilas olan ölkələrin sakinləri özlərini azad və xoşbəxt hesab edirlər: "Son vaxtlar korrupsiyaya qarşı mübarizə istiqamətində ölkəmizdə bir sıra addımlar atıldı. Təbii ki, cəmiyyət bunu müsbət qarşıladı. Biz korrupsiyaya qarşı mübarizə istiqamətində görülən tədbirləri birmənalı dəstəkləyirik. Düşünürəm ki, bu istiqamətdə fəaliyyət davam edəcək, qanunsuz yolla mənimsənilən vəsait dövlətimizə, millətimizə qaytarılacaq".

Elşad Musayev yekunda bir daha qeyd etdi ki, BAP birmənalı olaraq ölkədə pozitiv istiqamətdə aparılan islahatları yüksək qiymətləndirir və bu istiqamətdə hansı addımlar atılacaqsa, ona dəstək verəcək: "Bu zaman müəyyən səhvlər də ola bilər. Bundan qorxmaq lazım deyil, ən əsası qərarlı surətdə islahat yolunu seçmək və onu davam etdirməkdir. Dövlət orqanlarında çalışanlar və siyasi partiya təmsilçiləri də təşəbbüskar olmalı, yeni təkliflərlə çıxış etməkdən çəkinməməlidirlər. Yekunda bir daha qeyd edirəm ki, müasir, yeniləşən dünyada layiqli yer tutmanın əsas yolu islahatdır və biz də məhz bu yolla getməliyik".

***Hazırladı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9, № 11, maddə 1684, № 12, maddələr 1881, 1908) 35-ci maddəsinin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət bu uşaqların sosial bacarıqlarının inkişafına, peşə-əmək və psixoloji-pedaqoji reabilitasiyasına, habelə psixoloji korreksiyasına kömək göstərir, uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısını almaq üçün tədbirlər görür.".

**Maddə 2.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddənin 28-ci və 37-ci bəndlərində "əlil arabaları" sözləri "əlilliyi olan şəxs üçün arabalar" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci maddənin 36-cı bəndində "mühərriksiz əlil arabalarında" sözləri "əlilliyi olan şəxs üçün mühərriksiz arabalarda" sözləri ilə, "əlil arabası" sözləri "əlilliyi olan şəxs üçün araba" sözləri ilə əvəz edilsin;

2.3. 9-cu maddənin III hissəsində "əlillərin və sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri ilə əvəz edilsin;

2.4. 34-cü maddənin III hissəsinin 14-cü bəndində "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

2.5. 37-ci maddənin I hissəsinin 11-ci bəndində "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

2.6. 40-cı maddənin I hissəsinin 1-ci və 3-cü bəndlərində "mühərriksiz əlil arabalarında" sözləri "əlilliyi olan şəxs üçün mühərriksiz arabalarda" sözləri ilə əvəz edilsin;

2.7. 53-cü maddənin X hissəsi üzrə:

2.7.1. birinci cümlədə "əlillər" sözü "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

2.7.2. ikinci cümlədə "Əlillər" sözü "Əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

2.7.3. üçüncü cümlədə "Əlillər" sözü "Əlilliyi olan şəxslər" sözləri ilə və "əlil avtomobili" sözləri "əlilliyi olan şəxs" tanınma" sözləri ilə əvəz edilsin;

2.7.4. dördüncü cümlədə "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

2.8. 64-cü maddənin V hissəsinin 4-cü bəndində "I və II qrup əlillərin idarə etdiyi" sözləri "Əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

2.9. 69-cu maddənin VI hissəsinin 24-cü bəndində "Əlil" sözü "Əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

2.10. 72-ci maddə üzrə:

2.10.1. birinci hissənin 5-ci bəndində "Əlil" sözü "Əlilliyi olan şəxs" sözləri ilə və "II qrup əlillər" sözləri "II dərəcə əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

2.10.2. "Qeyd" hissənin birinci cümləsində "Əlil" sözü "Əlilliyi olan şəxs" sözləri ilə, "II qrup əlillərə" sözləri "II dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə və ikinci cümləsində "Əlil" sözü "Əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

2.11. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 7 saylı Əlavə "Nəqliyyat vasitələrinin tanınma nişanları"nın mətnində "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34; 2019, № 4, maddə 576, № 6, maddə 1004) 14-cü maddəsinin ikinci hissəsinin ikinci abzasında "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 56; 2002, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2008, № 7, maddə 602; 2017, № 7, maddə 1281; 2018, № 3, maddə 370) 22-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində "əlil və ya sağlamlıq imkanları məhdud uşaq" sözləri "əlilliyi olan şəxs, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390; 2002, № 5, maddə 241; 2003, № 1, maddələr 11, 13; 2006, № 6, maddə 478, № 8, maddə 657; 2007, № 1, maddə 3, № 6, maddə 571; 2008, № 5, maddə 348, № 12, maddə 1048; 2012, № 6, maddə 504; 2014, № 3, maddə 235; 2015, № 3, maddə 245, № 10, maddə 1096; 2018, № 11, maddə 2206) 9-cu maddəsinin üçüncü hissəsinin üçüncü abzasında "əlil olmuş" sözləri "iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 392; 2001, № 11, maddələr 676, 699, № 12, maddə 731; 2007, № 11, maddə 1053; 2010, № 4, maddə 280; 2011, №7, maddə 602; 2014, № 11, maddə 1340; 2015, № 10, maddə 1104; 2017, № 1, maddə 30; 2019, № 1, maddə 9) 6-cı maddəsinin ikinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. üçüncü abzasda "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

6.2. yeddinci abzasda "tək pensiyaçıların və əmək qabiliyyəti olmayan əlillərin" sözləri "xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti, habelə şəxsə (ailəyə) qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri olmayan pensiyaçıların və əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 469; 2001, № 12, maddə 736; 2002, № 12, maddə 709; 2003, № 12 (I kitab), maddə 672; 2007, № 10, maddə 938; 2015, № 11, maddə 1264; 2018, № 11, maddə 2199; 2019, № 6, maddə 993) 7-ci maddəsinin 4-cü hissəsinin dördüncü abzasında "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci maddənin on birinci abzasında "II qrup əlil" sözləri "II dərəcə əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

8.2. 7-ci maddənin ikinci hissəsinin ikinci cümləsi üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sosial xidmət müəssisələrində yaşayan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların növbədənkənar mənzil almaq hüququ "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 32.3-cü maddəsinə uyğun olaraq müəyyən edilir.".

**Maddə 9.** "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 569; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692; 2006, № 11, maddə 928; 2007, № 6, maddə 560; 2008, № 8, maddə 695, № 11, maddə 960; 2009, № 12, maddə 966; 2013, № 4, maddə 357; 2014, № 1, maddə 8, № 4, maddə 337; 2015, № 2, maddə 75, № 3, maddə 251) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 5-ci maddənin ikinci hissəsinin "c" bəndi üzrə:

9.1.1. birinci abzasda "sığorta olunana əlillik təyin olunduqda" sözləri "sığortaolunanın əlilliyi müəyyən edildikdə" sözləri ilə əvəz edilsin;

9.1.2. ikinci, üçüncü və dördüncü abzaslarda "qrup" sözü "dərəcə" sözü ilə əvəz edilsin;

9.2. 7-ci maddənin birinci hissəsinin "b" bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq qəbul edilmiş qərarın surəti;".

**Maddə 10.** "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 5; 2001, № 12, maddə 731; 2008, № 7, maddə 602; 2017, № 1, maddə 1) 13-cü maddəsinin birinci hissəsinin dördüncü abzasında "əlil və ya sağlamlıq imkanları məhdud olarsa" sözləri "əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilərsə" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, №12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501; 2015, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12, maddə 2488; 2019, № 2, maddə 180) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

11.1. 72-ci maddənin ikinci hissəsinin "z" bəndinin dördüncü abzasının birinci cümləsində "ikinci qrup 18 yaşından yuxarı olan əlil uşaqlar" sözləri "ikinci dərəcə əlilliyi olan övladları" sözləri ilə əvəz edilsin;

11.2. 152-ci maddənin birinci hissəsinin birinci cümləsində "xəstəlikdən əlil olmuş" sözləri "xəstəliklə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

## "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 109-VIQD nömrəli Qanununun tətbiqi və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Torpaq bazarı haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 109-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691) 2.6-cı bəndində "ikinci cümləsində" sözləri "üçüncü cümləsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2020-ci il*

## "Yaşayış minimumu haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Əmək pensiyaları haqqında", "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 974; 2006, № 6, maddə 480; 2007, № 5, maddə 401; 2017, № 12 (I kitab), maddə 2205; 2018, № 3, maddə 393) 1.0.3-cü maddəsində "əlillər" sözü "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 562; 2007, № 12, maddə 1218; 2008, № 7, maddə 602) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.8-ci maddədə "əlillik və ya" sözləri "əlilliklə, o cümlədən" sözləri ilə əvəz edilsin;

2.2. 7.2-ci maddədə "Şəxs donorluqla əlaqədar əlil olduqda" sözləri "Şəxsin donorluqla əlaqədar əlilliyi müəyyən edildikdə" sözləri ilə və "əmək xəsarəti" sözləri "istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 563; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 650) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü maddənin birinci cümləsinə "əlillik," sözündən sonra "o cümlədən" sözləri əlavə edilsin;

3.2. 9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"9.2. İrsi qan xəstəliyi olan şəxslərin əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. İrsi qan xəstəliyi olan 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan şəxslərə əlillik müddətsiz müəyyən edilir.".

**Maddə 4.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, №11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884; 2019, № 11, maddə 1690) 26.5-ci maddəsində "Əlillər, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər" sözləri "Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1084; 2006, № 12, maddə 1031; 2008, № 6, maddə 462; 2011, № 7, maddə 592; 2014, № 12, maddə 1516; 2016, № 4, maddə 643; 2018, № 12 (I kitab), maddələr 2470, 2530; 2019, № 1, maddələr 5, 21, № 2, maddə 184, № 12, maddə 1901) aşağıdakı məzmunda 27.2-1-ci maddə əlavə edilsin:

"27.2-1. İnzibati icraatda iştirak edən və ixtisaslaşmış vasitəçilərin köməyinə ehtiyacı olan əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçilərin və peşəkar surdo tərcüməçilərin) xidmətləri ilə təmin edilirlər. Bu halda ixtisaslaşmış vasitəçilər (qiraətçilər və peşəkar surdo tərcüməçilər) bu Qanunun məqsədləri üçün tərcüməçi hesab olunurlar.".

**Maddə 6.** "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1005; 2008, № 6, maddə 474, № 7, maddə 602; 2015, № 3, maddə 257; 2018, № 5, maddə 871; 2019, № 3, maddə 380) 9.0.1-ci maddəsində "qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində" sözləri "ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 3, maddə 380, № 2, maddə 205, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 11-ci maddə üzrə:

7.1.1. 11.1-ci maddənin ikinci cümləsində "qrupları, əlilliyin və ya" sözləri "dərəcələri, əlilliyin, o cümlədən" sözləri ilə, ", habelə onların başvermə" sözləri "və" sözü ilə əvəz edilsin;

7.1.2. 11.2-ci və 11.2.2-ci maddələrdə "əlillər" sözü "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

7.1.3. 11.2.1-ci maddədə "müharibə əlilləri" sözləri "müharibə ilə əlaqədar əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

7.1.4. 11.3-cü maddədə "müharibə əlili" sözləri "müharibə ilə əlaqədar əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

7.2. 12-ci maddə üzrə:

7.2.1. 12.1-ci maddənin birinci və ikinci cümlələrində "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.2.2. 12.2-ci maddədə "I qrup müharibə əlili" sözləri "müharibə ilə əlaqədar I dərəcə əlilliyi" sözləri ilə əvəz edilsin;

7.3. 13.3-1-ci maddənin birinci cümləsində "I qrup müharibə əlili" sözləri "müharibə ilə əlaqədar I dərəcə əlilliyi" sözləri ilə əvəz edilsin;

7.4. 14-cü maddə üzrə:

7.4.1. 14.1.1.2-ci maddədə "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin;

7.4.2. 14.1.2-ci maddədə "II qrup əlildirsə" sözləri "II dərəcə əlilliyi olan şəxsdirsə" sözləri ilə əvəz edilsin;

7.5. 17.2-ci maddənin birinci cümləsində "I qrup müharibə əlili" sözləri "müharibə ilə əlaqədar I dərəcə əlilliyi" sözləri ilə əvəz edilsin;

7.6. 19-cu maddə üzrə:

7.6.1. 19.1.2-ci maddədə "I qrup gözdən əlillərə" sözləri "I dərəcə gözdən əlilliyi olan şəxslərə" sözləri ilə və "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.6.2. 19.1.3-cü maddədə "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə və "18 yaşınadək şəxslərə" sözləri "18 yaşınadək uşaqlara" sözləri ilə əvəz edilsin;

7.6.3. 19.1.7.1-19.1.7.3-cü, 19.1.8.1-ci və 19.1.8.2-ci maddələrdə "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.6.4. 19.1.7-ci maddədə "müharibə əlillərinə" sözləri "müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə" sözləri ilə, "əlilləri" sözü "ilə əlaqədar əlilliyi olan şəxslər" sözləri ilə və "əlillərə" sözü "əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.6.5. 19.1.8-ci maddədə "əlillərinə" sözü "bununla əlaqədar əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.6.6. 19.1.8.3-cü maddədə "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə və "əlil" sözü "əlilliyi" sözü ilə əvəz edilsin;

7.7. 20-ci maddə üzrə:

7.7.1. 20.1.1-ci, 20.1.3-cü, 20.1.4-cü, 20.1.5-1-ci, 20.1.6-cı, 20.1.7-ci, 20.1.9-cu, 20.1.14-cü, 20.1.16-cı, 20.1.18-ci, 20.1.20-ci, 20.3-cü və 20.22-ci maddələrdə "qrup əlil olmuş" sözləri "dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

7.7.2. 20.16.1-ci maddədə "I qrup müharibə əlillərinə" sözləri "müharibə ilə əlaqədar I dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə, "II qrup müharibə əlillərinə" sözləri "müharibə ilə əlaqədar II dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə və "III qrup müharibə əlillərinə" sözləri "müharibə ilə əlaqədar III dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.7.3. 20.16.2-ci maddədə "I qrup digər əlillərə" sözləri "I dərəcə əlilliyi olan digər şəxslərə" sözləri ilə, "əlillərə" sözü "əlilliyi olan şəxslərə" sözləri ilə və hər iki halda "qrup əlillərə" sözləri "dərəcə əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin;

7.7.4. 20.17.1-ci maddədə "müharibə əlilləri" sözləri "müharibə ilə əlaqədar əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

7.8. 21-ci maddə üzrə:

7.8.1. 21.2.4-cü maddədə "I qrup əlilə" sözləri "I dərəcə əlilliyi olan şəxsə" sözləri ilə əvəz edilsin;

7.8.2. 21.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"21.2.6. istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən I və II dərəcə əlilliyi olan şəxslərin yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət;";

7.9. 36-cı maddənin adında və 36.1-ci maddədə hər iki halda ismin müvafiq hallarında "qrupu" sözü ismin müvafiq hallarında "dərəcəsi" sözü ilə əvəz edilsin;

7.10. 37.5-ci maddədə "Qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "Ahıllara və əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri ilə əvəz edilsin;

7.11. 41-ci maddə üzrə:

7.11.1. adında "Əlillərin, 18 yaşınadək sağlamlıq imkanları məhdud şəxslərin" sözləri "Əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri ilə əvəz edilsin;

7.11.2. 41.1-ci maddədə "Əlil, sağlamlıq imkanları məhdud şəxs" sözləri "Əlilliyi olan şəxs, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" sözləri ilə əvəz edilsin;

7.11.3. 41.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.2. Onun əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu yenidən müəyyən edilərsə, əmək pensiyasının verilməsi əlilliyin, o cümlədən sağlamlıq imkanlarının məhdudluğun yenidən müəyyən edildiyi gündən bərpa edilir.";

7.11.4. 41.4-cü maddədə "əlil" sözü "əlilliyi olan şəxs" sözləri ilə, "qrupuna" sözü "dərəcəsinə" sözü ilə və "qrup" sözü "dərəcə" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380, № 12, maddə 1893) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.0.2-ci maddədə "əlil" sözü "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

8.2. 4.0.1.3-cü maddəyə "əlilliyə" sözündən əvvəl "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri əlavə edilsin;

8.3. 7-ci maddə üzrə:

8.3.1. 7.0.3-cü maddəyə "əlilliyə" sözündən əvvəl "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri əlavə edilsin;

8.3.2. 7.0.11-ci maddədə "əlil olduğunu" sözləri "əlilliyinin müəyyən edildiyini" sözləri ilə, "müvafiq icra hakimiyyəti orqanının arayışı" sözləri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq qəbul edilmiş qərar" sözləri ilə əvəz edilsin;

8.4. 9-cu maddə üzrə:

8.4.1. 9.1.4.2-ci maddədə "əlil" sözü "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

8.4.2. 9.2-ci maddədə "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin;

8.5. 11.1.3-cü maddədə "əlilliyə" sözündən əvvəl "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri əlavə edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 216; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 212, № 5, maddə 314; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 11, maddə 923; 2008, № 12, maddə 1048; 2014, № 3, maddə 234; 2015, № 3, maddə 248, № 10, maddə 1095) ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"nin 13-1.1-ci maddəsində "əlil olmuş" sözləri "iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

# OXUCULARIN NƏZƏRİNƏ

## “AZƏRBAYCAN”

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 564-63-45, (050) 214-04-05 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi aşağıdakı malların satın alınması məqsədilə**
***təkliflər sorğusu elan edir***

Birdəfəlik plastik yemək qabı (boşqab, çəngəl, qaşıq və bıçaq) dəstinin satın alınması
Maraqlanan təşkilatlar **(012) 408-81-25** nömrəli telefonla əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusu **24 iyul 2020-ci il saat 16:00-da** keçiriləcəkdir.
İştirak etmək üçün sənədlər **23 iyul 2020-ci il saat 17:00-dək** qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 161**

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

“Azərbaycan” qəzetinin 24 iyun 2020-ci il tarixli sayında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə “Azərsu” ASC-nin Nəqliyyat və Xüsusi Texnika İdarəsinin balansında olan texnikaların yüksək təzyiqli yanacaq nasosunun və yanacaq püskürücüsünün təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 27 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 06 avqust 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 07 avqust 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 04 mart 2020-ci il tarixdə elan edilmiş “Neftçala TKQ-nın inzibati binasında dam örtüyünün dəyişdirilməsi işlərinin satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “Master Ofis” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “Master Ofis” MMC arasında 09 iyul 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları üçün inventarların satın alınması məqsədilə 09.04.2020-ci il tarixdə www.etender.gov.az saytında, “Azərbaycan” qəzetinin 10.04.2020-ci il tarixli sayında elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində “QARDAŞLAR MEBEL-3” MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələri üçün “Dərman, sarğı ləvazimatlarının və materiallarının” satın alınması məqsədilə 02.06.2020-ci il tarixdə www.etender.gov.az saytında, “Azərbaycan” qəzetinin 04.06.2020-ci il tarixli sayında elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində “SOLAMEDİCAL” MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


# *Polkovnik Vaqif Dərgahlı:* “Döyüşdə uduzan erməni hərbçiləri saxtakarlıqlara əl atırlar”

Azərbaycan-Ermənistan sərhədində gedən döyüşlərin ikinci günündəcə Ermənistan Müdafiə Nazirliyinin hazırkı mətbuat katibini praktiki olaraq arxa planda qoyan sabiq mətbuat katibinin reinkarnasiyası, təxmin etdiyimiz kimi, çoxsaylı saxta məlumatlar və dezinformasiyalar yaratmaq məqsədi güdürdü. Bu baxımdan İrəvanda sabiq mətbuat katibinə bərabər tutulacaq ikinci bir adam yoxdur.

Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib.

Vaqif Dərgahlı deyib: “Bu günlər ərzində Ermənistan Müdafiə Nazirliyi onlarla saxta və dezinformasiya xarakterli məlumatlar hazırladı.

Biz bu dezinformasiyanı operativ şəkildə təkzib edirik. Xüsusilə, bildiyiniz kimi, Ermənistan Müdafiə Nazirliyi erməni ictimaiyyətini bir növ ilhamlandırmaq üçün guya döyüş zamanı Azərbaycan Ordusunun 13 PUA-sını itirdiyi barədə saxta məlumatlar yaydı. Bəs olmayan bir şeyi necə sübut etmək olar? Axı erməni cəmiyyəti də sübut tələb edir. Elə ona görə də Ermənistanın Müdafiə Nazirliyi guya Azərbaycanın vurulmuş PUA-larından birinin olduğu iddia edilən fotoşəkli sosial şəbəkədə yayımladı. Lakin erməni mif yaradıcılarını suyun üzünə çıxarmaq elə də çətin olmadı - fotodakı PUA-nın Azərbaycanın deyil, Amerikanın 2014-cü ildə Əfqanıstanda vurulan PUA-sı olduğu tez bir zamanda sübut edildi.

Diqqətçəkən məqamlardan biri də o oldu ki, hətta xarici jurnalistlər belə erməni uydurmalarını ifşa etməyə başladılar. Belə ki, Almaniyanın “Bild” nəşrinin hərbi analitiki Julian Repke Ermənistan Müdafiə Nazirliyinin yaydığı guya Azərbaycana məxsus PUA-nın vurulduğunu əks etdirən videonun həqiqətə uyğun olmadığını qeyd edib. Çünki videoda görüntülənən ikimühərrikli kiçikhəcmli mülki sərnişin təyyarəsidir.

Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusunun bütün PUA-ları yerindədir və işləkdir. Azərbaycan Müdafiə Nazirliyi itkiləri gizlətmədən sərhəddəki vəziyyətlə bağlı bütün lazımi məlumatları operativ şəkildə verir”.

# Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 97 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 97 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində nisbi sakitlikdir, yaşayış məntəqələrimiz atəşə tutulmur. Amma ümumilikdə gərginlik davam etməkdədir. Ermənistan Respublikasının Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Düşmənin artilleriya atəşi nəticəsində Dondar Quşçu kənd sakininin əmlakının məhv edilməsi ilə bağlı cinayət işi başlanıb

Ermənistan Azərbaycan Respublikasının Silahlı Qüvvələri qarşısında növbəti dəfə acizlik nümayiş etdirməklə toqquşmanın intensivləşməsinə nail olmaq, habelə yeni təcavüz aktları həyata keçirmək məqsədilə mülki əhalinin sıx yaşadığı əraziləri atəşə tutaraq onlara qarşı müxtəlif cinayətlər törətməyə davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 16-da saat 06 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Tovuz rayonunun Dondar Quşçu kənd sakini Abdullayeva Roza Asif qızına məxsus evə və evin qarşısındakı yardımçı tikiliyə odlu silah mərmisinin atılması və həmin mərminin partlaması nəticəsində zərərçəkmiş şəxsin əmlakı qəsdən məhv edilməklə sonuncuya xeyli miqdarda ziyan vurulub. Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib. Maddi sübutlar toplanılıb, dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə mütəxəssislər cəlb olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Faktla bağlı Tovuz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 186.2.2-ci (yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurulmaqla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri və institusional tədbirlər görüləcək.

# DTX bir qrup şəxsin təxribat məqsədilə Milli Məclisin binasına daxil olması ilə bağlı məlumat yayıb

İnternet resurslarında cari il iyulun 14-də gecə saatlarında bir qrup şəxsin təxribat məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasına daxil olmasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşı Rauf Xələfovla əlaqələndirilməsi kimi absurd, heç bir əsası və məntiqi olmayan fikirlər səsləndirilməkdədir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin adı çəkilən əməkdaşının digər hüquq mühafizə orqanlarının işçiləri ilə birlikdə həmin vaxt xüsusi mühafizə obyekti olan Milli Məclisdə olması xidməti vəzifələrin icrasından irəli gəlib.

Ayrı-ayrı sosial şəbəkə və media resurslarında bilərəkdən qərəzli məqsədlər üçün belə məlumatları yayanlar heç şübhəsiz düşmən və anti-Azərbaycan qüvvələr tərəfindən idarə olunduqlarını və onların sifarişlərini yerinə yetirdiklərini aydın şəkildə bir daha sübut edirlər.

Milli Məclisin binasında avadanlıq və inventarların sıradan çıxarılmasında və digər pozucu hərəkətlərdə iştirak edən şəxslər qanunvericiliyə uyğun məsuliyyətə cəlb olunacaqlar.

Dövlət Təhlükəsizliyi Xidməti vətəndaşlarımızı heç bir təxribata uymamağa və dövlətçilik mövqeyindən çıxış etməyə çağırır.

## ALLAH RƏHMƏT ELƏSİN!

YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov və kollektivi Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının və İşlər idarəsinin kollektivləri parlament Aparatının sabiq əməkdaşı, 1991-2006-cı illərdə Milli Məclisin Mətbuat xidməti şöbəsinin müdiri vəzifəsində çalışmış

**AQŞİN ƏLİSƏTTAR oğlu BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aftandil Babayev qocaman jurnalist Musa Bağırova həyat yoldaşı

**NAİLƏ BAĞIROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Yoluxucu xəstəliklər kafedrasının müdiri, professor

**NAMİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rəhbərliyi və kollektivi ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi

**MƏZAHİR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

“Azneftemaş” ASC-nin rəhbərliyi və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6830
Sifariş 1701
Qiyməti 40 qəpik